RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 130 (8446) ÇƏRŞƏNBƏ, 8 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Qlobal miqyaslı lider

Cəmi bir neçə ayın içində bütün dünyanı çənginə almış koronavirus pandemiyasının insanlara anlatdığı xeyli həqiqətlər var...
Həqiqətlər çox vaxt acı olur, onları qəbul edib nəticə çıxarmaq da adətən çətin başa gəlir. Amma özündə güc taparaq gözlərini dörd açıb gerçəklərin yaratdığı mənzərəni duya biləndə görürsən ki, bir çox suallarına uzun zamanlardan bəridir axtardığın cavabların çoxu elə bu mənzərədəymiş.
Zənnimcə, fərd olaraq insanlar, ümumilikdə isə bəşəriyyət hələ illər sonra da COVID-19 həqiqətlərindən müəyyən nəticələr çıxaracaq, bu qlobal bəlaya qədərki yanlışları bir daha təkrarlamamağa çalışacaqlar.
Bundan sonra tarix çoxları üçün iki səhifəyə bölünəcək: pandemiyadan əvvəl və sonra.
Və postpandemiya dövründə yaşananlar bəşəriyyətin buna qədərki tərzihəyatından xeyli fərqlənəcək.

Hərdən düşünürəm ki, bəlkə XXI əsr də elə indi başlanır, bizim yeni əsrdən qoparıb ömrümüzə köçürdüyümüz iyirmi il əvvəlki əsrin, əski tarixin bir qədər modern formada davamı imiş, kim bilir?!

Əgər gözləntilər özünü doğrultsa, bəs onda yeni dünyanın, artıq addım səslərini eşitməkdə olduğumuz o yeni zamanın insanları necə olacaqlar?!

Xalqlar, dövlətlər bundan sonra davranışlarını necə quracaqlar?!

Mədəniyyət öz mövcudluğunu necə sürdürəcək?!

❖ ❖ ❖

Bu suallara dürüst cavab tapmaqdan ötrü onların mərkəzinə fərdləri deyil, toplumları qoymaq lazım gəlir. Çünki gələcəyin dünyası fərdlərdən daha çox toplumların dünyası olacaq. Gələcəkdə ümumi maraqlar, "mən" deyil, "biz" düşüncəsi yenidən önə çıxacaq.

Son illərə qədər yalnız öz həyatına, baxışlarına, zövqlərinə dəyər verən, başqalarının rəyini o qədər də nəzərə almaq istəməyən və bu yanaşmanı bütün dünyada daha çox insanın beyninə yeritmək istəyən fərdlər anlayacaqlar ki, heç kim bu kainatda tək deyil.

Dünya bizim ümumi evimizdir. Onun kəsilən hər ağacı başqaları kimi bizim də bir ağacın nəfəsi qədər təmiz hava payımızı əlimizdən alır, onun torpağına atılan hər zərərli tullantı başqaları ilə birgə bizim də həyatımızı zəhərləyir, boşuna axıdılıb israf edilən hər qətrə suyu hamının ciyərini yandırır.

Bir-birinin dərdlərinə, qayğılarına laqeydlik, bəşəriyyətin minilliklər boyu formalaşdırdığı dəyərlərə saygısızlıq, xeyirxahlıq, şəfqət, başqalarına mərhəmət hissinin korşalması təkcə fərdləri deyil, ümumilikdə dünyanı sonu bilinməyən mənəviyyat uçurumuna sürükləyir.

Və biz bütün bunları həm özümüzə, həm də başqalarına görə qoruyub saxlamalıyıq.

Aylar əvvələ qədər hansımızın ağlına gələ bilərdi ki, ürəyimiz istəyən an əlimiz çatan, ünümüz yetən doğmalarımızın üzünü aylarla görə bilmədiyimiz günlər yaşanar. Xəstəxana yatağında ölümlə çarpışan yaxınımızı beşcə dəqiqə belə ziyarət edə bilməməyin çarəsizliyi ilə üzləşərik. Uzun illərdən bəri ülfətimiz olan, indisə koronavirusun aramızdan alıb apardığı dost-tanışımıza son borcumuzu verə bilməməyin əzabı bir ömürlük ruhumuza hopar.

Bütün bunlar xəstəliyin əhatə dairəsinin daha da genişlənməməsi, özümüzü və başqalarını qorumaq üçün əməl etməli olduğumuz məcburiyyətdir. Nə qədər ki, pandemiyaya qarşı mübarizə tədbirləri davam edir, hər birimiz bu məhdudiyyətlərlə yaşamalıyıq, belə yaşamağa məcburuq.

Amma bu məcburiyyətdən gələn reallığın özü də çox şeylər öyrədir, ancaq özün üçün yaşamağın, ancaq özünü düşünməyin, başqalarına laqeydlik göstərməyin nə qədər eybəcər bir mənzərə olduğunu həyatımızın bu məhdudiyyətlərlə dolu hər anında əks etdirir.

Özümüzə baxıb görürük ki, İlahi, daşıdığımız dəyərlərsiz, doğmalarsız, bizi bir-birimizdən ayıran məsafələrlə, lazımi anda köməyə tələsə bilməməyin, dar ayaqda başqalarının yanında ola bilməməyin imkansızlığı içində həyatımız nə qədər mənasızmış, bozmuş, məzmunsuzmuş, soyuqmuş.

Anlayırıq ki, insan həyati vacib və həm də müvəqqəti olduğunu bildiyi məcburiyyətlər vadar etməyənə qədər ürəyinin qapılarını başqalarına bağlamamalıdır. Özü ilə başqaları arasında məsafə qoymamalıdır, ülfətdən, ünsiyyətdən, birgəlikdən qaçmamalıdır.

Ardı 4-cü səh.

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli, 1 may tarixli 69-VIQD nömrəli, 2 iyun tarixli 124-VIQD nömrəli qanunları) 356.1-ci maddəsində "dərman qutuları" sözləri "ilk tibbi yardım qutusu" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2020-ci il*

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; 2015, № 2, maddə 99, № 4, maddə 347, № 11, maddə 1287; 2016, № 12, maddə 2032; 2017, № 6, maddə 1044, № 12 (I kitab), maddə 2188; 2018, № 7 (I kitab), maddə 1443; 2019, № 12, maddə 1902) 13.3-1-ci maddəsinin birinci cümləsinə "peşəkar çatışmazlıqlar" sözlərindən sonra ", o cümlədən məhkəmələrin fəaliyyətinin monitorinqi nəticəsində maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2020-ci il*

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4, maddə 645, № 6, maddələr 1165, 1192, № 7 (I kitab), maddələr 1432, 1436, 1439; 2019, № 1, maddə 46, № 6, maddə 997, № 7, maddə 1183, № 8, maddə 1376) aşağıdakı dəyişikliklər edilsin:

1. 20-ci maddənin IV hissəsində "xüsusi dərman qutularının olmasını, onların" sözləri "ilk tibbi yardım qutusunun olmasını, onun" sözləri ilə əvəz edilsin;

2. 1 saylı Əlavənin VII hissəsinin 7-ci bəndinin ikinci və dördüncü abzaslarında "dərman" sözü "ilk tibbi yardım" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2020-ci il*

## İnsanların sağlamlığı bütün vəzifələrin fövqündə dayanır

### **İlham ƏLİYEV:** "Bütün qabaqlayıcı tədbirlərin görülməsi ilə vəziyyəti nəzarətdə saxlaya bildik"

Ötən ilin sonlarından yayılmağa başlayan COVID-19 infeksiyası gözlənildiyindən də təhlükəli olmaqla bütün ölkələri təhdid etməkdə davam edir. Hazırda dünyada koronaviusa yoluxanların sayı 11,5 milyonu ötüb. Vəfat edənlərin sayı isə 530 mindən çoxdur. Bu qədər insan ölümünə səbəb olduğuna görə COVID-19-u haqlı olaraq müharibə ilə də müqayisə edirlər.

### Qabaqlayıcı tədbirlər bizi böyük fəlakətdən qorudu

İnfeksiyanın yayılmağa başladığı dövrdən, xüsusilə ölkəmizin sərhədlərinə yaxınlaşdığı ilk gündən başlayaraq Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən bütün istiqamətlər üzrə ciddi çevik və qətiyyətli tədbirlərin həyata keçirilməsinə başlanıldı. Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, vəziyyətin nəzarət altına alınması və kütləvi yoluxmanın qarşısının alınması məqsədilə təhsil prosesinin dayandırılması, bütün kütləvi tədbirlərin ləğv edilməsi, ticarət və əyləncə mərkəzlərinin fəaliyyətinin dayandırılması da daxil olmaqla bir sıra qabaqlayıcı və effektli hesab olunan qərarlar qəbul edildi.

Həmçinin qısa zamanda səhiyyə infrastrukturu koronavirusla mübarizəyə istiqamətləndirildi.

Ardı 5-ci səh.



## Avrasiyanın ən effektiv logistik məkanı

### Prezident İlham Əliyevin qlobal təşəbbüsləri ilə Azərbaycan pandemiya dövründə də maneəsiz tranzit daşımalarını təmin edir

Dünya miqyasında sülhün, əmin-amanlığın, etibarlı tərəfdaşlığın, qarşılıqlı iqtisadi əməkdaşlığın inkişafına layiqli töhfələr verən Azərbaycan qlobal pandemiya dövründə də bu xoşməramlı missiyasına sadiqlik nümayiş etdirir. Prezident İlham Əliyevin qlobal miqyasda həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verən nümunəvi təklifləri, aktiv xarici siyasəti beynəlxalq təşkilatlar, böyük dövlətlər tərəfindən təqdir edilir.

### Beynəlxalq yük daşımaları fasiləsiz olaraq həyata keçirilir

Bu gün qlobal pandemiya dünya iqtisadiyyatına hərtərəfli zərbə vurmaqdadır. 150-dən artıq ölkənin sərhədləri bağlıdır. Lakin buna baxmayaraq, Azərbaycan Avrasiyanın ən etibarlı, əlverişli nəqliyyat-tranzit qovşağı olduğunu isbatlamaqdadır.

Ardı 6-cı səh.

## İlham Əliyev Ermənistan hakimiyyətini ifşa etdi:

### *"Prezidentləri rüşvətxor, generalları oğru, qəhrəmanları faşist, terrorçudur"*

**Ermənistanın dövlət olaraq varlığını davam etdirə bilməsi Azərbaycanla normal münasibətlərin qurulmasından, işğal siyasətindən əl çəkməsindən keçir. Əks təqdirdə Ermənistanın indiki çöküşü davam edəcək, ölkə daha böyük sürətlə tənəzzül girdabına yuvarlanacaq. Yerevan qonşu ölkələrin hamısı ilə münasibətlərini normallaşdırmasa, Dağlıq Qarabağdan silahlı qüvvələrini çəkib işğala son qoymasa, hakimiyyətdə kimin təmsilçiliyindən asılı olmayaraq, ölkədə hansısa iqtisadi tərəqqidən danışmaq mümkün deyil.**

**Bu gün işğalçı Ermənistanda pandemiya fonunda iqtisadi tənəzzül daha da dərinləşib, ölkənin xaricdən iqtisadi asılılığı artıb. Xarici borc çoxalıb və onu qaytarmaq üçün ölkə lazımi resurslara malik deyil. Burada bir məqamı xüsusi qabartmaq lazımdır ki, Ermənistanın belə acınacaqlı vəziyyətə düşməsinin ümdə səbəbi işğalçılıq siyasətidir və bunun nəticəsində Azərbaycanın, Prezident İlham Əliyevin təcavüzkara qarşı gördüyü tədbirlərdir.**

Ardı 7-ci səh.



## Azərbaycan dövləti bütün imkanlarını pandemiya ilə mübarizəyə yönəldib

### **Prezident İlham ƏLİYEV:** "Bu xəstəxanaların tez bir zamanda inşa edilməsi onu göstərir ki, biz hətta seytnot vəziyyətdə lazımi addımları ata bilərik"

Bəşəriyyət Yer üzərində sürətlə yayılan yeni növ koronavirus - COVID-19-la mübarizəsini davam etdirir. Dünya COVID-19 pandemiyasının birinci mərhələsindən tam yaxa qurtarmamış ikinci və daha təhlükəli dalğası ilə üz-üzə qalıb. Ölkələrdə tətbiq olunan sərt karantin rejimləri infeksiyaya yoluxma dinamikasını bir qədər sabitləşdirsə də, yumşaldılmalar zamanı virus yenidən sürətlə yayılmağa başlamışdır.

Ardı 5-ci səh.

## “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 79; 2009, № 6, maddə 400, № 7, maddə 517; 2016, № 3, maddələr 394, 421; 2017, № 7, maddə 1310; 2019, № 1, maddə 31) 19-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 19.4-cü maddədə “Azərbaycan Respublikasının Prezidentinə” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə əvəz edilsin.

2. 19.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

“19.5. İllik hesabata aşağıdakılar daxildir:

19.5.1. Fondun illik maliyyə hesabatları;

19.5.2. iştirakçı bankların reyestri.”.

3. 19.6-cı maddədə “mühasibat balansı, pul vəsaitlərinin hərəkəti, vəsaitlərin idarə edilməsindən əldə olunan gəlirlər (zərərlər) barədə hesabatların” sözləri “maliyyə hesabatlarının” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2020-ci il*

## “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 105-VIQD nömrəli Qanununun tətbiqi və “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 fevral tarixli 530 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 105-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

“Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 fevral tarixli 530 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 96; 2010, № 2, maddə 80; 2014, № 5, maddə 477; 2016, № 3, maddə 433, № 10, maddə 1610; 2017, № 7, maddə 1338) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bənddə “və 9.1-ci” sözləri “ , 9.1-ci və 19.4-cü” sözləri ilə əvəz edilsin.

2. 2.4-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.5-ci bənd əlavə edilsin:

“2.5. həmin Qanunun 19.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2020-ci il*

## “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, “Balıqçılıq haqqında”, “Yeyinti məhsulları haqqında”, “Taxıl haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1662-VQD nömrəli Qanununun icrasının təmin edilməsi məqsədilə **qərara alır:**

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 71-VIQD və 74-VIQD nömrəli qanunları) 18.62.2-ci və 18.62.3-cü maddələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2020-ci il*

## Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitoya

Əlahəzrət.

Ölkənizin cənubunda baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və irimiqyaslı dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 7 iyul 2020-ci il*

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər



## “Sizin rəhbərliyinizlə dövlətimizin həyata keçirdiyi tədbirlər xalqımızda böyük qürur hissi yaradıb”

Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Laçın rayonundan məcburi köçkün **Ramil Xudayarov** yazır: “Hörmətli cənab Prezident, mənim ailəm 1992-ci ildə doğma yurd-yuvamız olan Laçın rayonundan məcburi köçkün düşdükdən sonra 28 il Ağcabədi rayonunun “Taxta körpü” adlanan ərazisində şəraiti ağır olan qamış evlərdə yaşamışdır. Mən doğma yurd-yuvamı canlı olaraq görməsəm də, valideynlərimin mənə danışdığı təəssüratlar beynimdə dərin iz salmışdır. Məcburi köçkün olaraq həmişə Sizin diqqət və qayğınızın şahidi olmuşam. Bu məktubu ünvanlamaqda məqsədim ailəmizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür etməkdir. Cənab Prezident, 2019-cu ilin sonunda Ağcabədi rayonunun “Taxta körpü” ərazisində Laçın rayonunun Şeylanlı kəndinin əhalisi üçün salınmış 144 saylı qəsəbədə ailəmiz evlə təmin olunmuşdur. Ailəmizə edilən bu yaxşılığı heç vaxt unutmayacağıq. Göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən bir Azərbaycan gənci olaraq daim Sizin siyasətinizi dəstəkləyir, Vətənim, dövlətim üçün layiqli gənc olmağa çalışıram. Sizə uzun ömür və cansağlığı arzu edirəm”.

İsmayıllı rayonunun Talıstan kəndinin sakinləri adından **Sihət Şirəliyev:** “Möhtərəm cənab Prezident, Sizin bu günlərdə rayonumuzun su təchizatının yaxşılaşdırılması məqsədilə 10 subartezian quyusunun qazılması ilə bağlı verdiyiniz sərəncam rayonumuzun bütün sakinləri kimi, bizi də ürəkdən sevindirir. Belə quyuların kəndimizdə də qazılacağına hədsiz dərəcədə sevinir və Sizə bütün kənd sakinlərinin minnətdarlığını, dərin hörmət və ehtiramını yetiririk. Ölkəmizin rifahı naminə Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirik”.

Bakı şəhərinin Yasamal rayonundan Əməkdar jurnalist **Mahir Məmmədlinin** məktubunda deyilir: “Möhtərəm cənab Prezident, bütün dünya, o cümlədən Azərbaycan üçün koronavirus pandemiyasının yaratdığı problemlər fonunda “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” sərəncamınız Sizin kütləvi informasiya vasitələrinə və jurnalistlərə nə qədər böyük önəm verdiyinizin sübutu oldu. Dünyada pandemiya başlayandan hər bir Azərbaycan vətəndaşı - sahibkarlar, muzdlu işçilər, işsizlər, aztəminatlı ailələr Sizin vətəndaşlara diqqətinizi hiss etdi, insanlarımızın sağlamlığı naminə dövlətin böyük vəsait ayırdığını gördü. Biz jurnalistlər xüsusi karantin rejimində də Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl etməklə fəaliyyətimizi davam etdiririk, ölkə əhalisini dolğun və ən əsası, doğru xəbərlərlə təmin etməyə çalışırıq. Bilirik ki, dövlətimizə, onun rəhbərliyinə qarşı məkrini həyata keçirmək üçün pusquda dayanan, bizi sevməyən xarici dairələrdən maliyyələşən qüvvələr var və əsl jurnalistlər meydanı onlara buraxmamalıdırlar. Cənab Prezident, koronavirusla mübarizə apardığımız bir vaxtda milli mətbuatımızın 145 illik yubileyinin qeyd olunması ilə bağlı sərəncam imzalamağınız jurnalistləri heç vaxt unutmadığınızın, “mənim köməkçilərim” adlandırdığınız bizə daim diqqət göstərdiyinizin isbatıdır. Mən bu diqqətin sevincini həm də xüsusi olaraq yaşamış biriyəm və Sizin sərəncamınızla “Əməkdar jurnalist” fəxri adı almağımla fəxr edirəm”.

Ağcabədi rayonu Salmanbəyli kənd tam orta məktəbinin müəllimi **Gülbikə Məmmədova:** “Hörmətli cənab Prezident, Qarabağ məsələsi bizim ən ağrılı yerimizdir. Beynəlxalq təşkilatlar bu məsələyə qarşı biganəlik nümayiş etdirirlər. Bəzən bizi həmin tribunalardan pisləyib gözdən salmaq istəyirlər. Lakin Siz bu məsələdə Azərbaycanın mövqeyini layiqincə təmsil edirsiniz. İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən sammitindəki çıxışınız bizi sabaha daha da ümidləndirdi. Siz Ermənistanın hökumət başçısını susdurdunuz. O, deməyə söz tapmadı. Bu, düşmən tərəfin haqsız olduğunu bir daha təsdiqlədi. Ulu Tanrının köməyi və Sizin düşünülmüş siyasətinizlə Qarabağ məsələsinin ədalətli həllini tapacağına inanırıq. Biz daim Sizin siyasətinizi dəstəkləyirik. Əgər müharibə olarsa, qadın olmağıma baxmayaraq, Sizin əmrinizlə torpaqlarımızın düşmən tapdağından azad olunmasında iştirak etməyə daim hazıram”.

İsmayıllı rayonunun Hacıhətəmli kəndinin sakinləri **Maqsud Hüseynov, Nazim Ağakişiyev, Əvəz Kərimov, Əlişir Babliyev** və **Ramil Salmanov** yazırlar: “Hörmətli cənab Prezident, İsmayıllı rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncamınız bütün İsmayıllı sakinləri kimi, Hacıhətəmli kənd sakinlərinin də sevincinə səbəb olmuşdur. Uzun illər susuzluqdan əziyyət çəkən Hacıhətəmli kənd sakinləri sərəncamınızla içməli su ilə təmin olunacaq və kəndin əsas problemlərindən biri həllini tapacaqdır. Bu böyük diqqət və qayğınıza görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Müstəqil Azərbaycanımızın tərəqqisi və inkişafı yolunda Sizə yeni uğurlar diləyirik”.

Salyan rayonunun Şorsulu kəndinin sakinləri adından **Akif İbrahimov, Rəis Abdullayev, Nizami Şükürov, Şahmar Cavadov, Emin Hüseynzadə** və **Yusif Sadıqzadə** yazırlar: “Möhtərəm cənab Prezident, Salyan rayonunun Şorsulu kəndinin sakinləri Sizin göstərişlərinizlə rayonumuzda görülən böyük quruculuq işlərini, iqtisadi həyatımızın yaxşılaşması üçün həyata keçirilən tədbirləri, mədəni həyatımızın yüksəlməsi üçün verdiyiniz sərəncam və fərmanları böyük ruh yüksəkliyi ilə qarşılayırlar. Koronavirusla əlaqədar gördüyünüz qabaqlayıcı tədbirlər böyük alqışa layiqdir. Pandemiya dövründə təqaüdlərimizi, sosial yardımları, 190 manat məbləğində birdəfəlik ödəməni vaxtında ala bildik. Pandemiya dövründə xalqımızın indiyədək az itki verməsi, həmçinin əvvəlki illərdə təbii fəlakətlər zamanı çətinə düşmüş insanlara böyük kömək göstərilməsi onu deməyə əsas verir ki, Siz Azərbaycan xalqının xilaskarısınız. Taleyimizin etibarlı əllərdə olmasından mənəvi rahatlıq tapırıq. Allah Sizə və ailənizə hər zaman firavan həyat qismət eləsin”.

Gəncə şəhərindən **Mehman Rzayev:** “Çox hörmətli cənab Prezident, Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Gəncəyə hər səfəriniz şəhərimizin gündən-günə inkişaf etməsinə, çiçəklənməsinə, gözəlləşməsinə xidmət edir. Sizin diqqət və qayğınız sayəsində Gəncə bu gün sənaye mərkəzinə çevrilir, yeni layihələr həyata keçirilir. Vətəndaşların maddi rifahının yaxşılaşdırılması, onların sağlamlığının qorunması istiqamətində atılan addımların bariz nümunəsi kimi yeni tikilən müəssisələri, açılan iş yerlərini, inşa edilən müasir tipli xəstəxanaları, universitet binalarını, tələbə yataqxanalarını, məktəb və bağçaları xüsusi qeyd etmək lazımdır. Sizin hər səfərinizdə verdiyiniz tapşırıqlar, rəhbərliyinizlə həyata keçirilən böyük layihələr qədim Gəncənin daha da yaraşıqlı və müasir bir şəhər olması üçün vacibdir. Sizin Gəncənin inkişafı üçün ayırdığınız böyük maliyyə vəsaitləri şəhərimiz üçün tarixi qərardır. Bu gün bütün dünyada COVID-19 pandemiyasının tüğyan etdiyi bir vaxtda qəbul etdiyiniz məqsədyönlü qərarlar sayəsində Azərbaycan bu ağır xəstəlik qarşısında aciz qalmır. Yeni xəstəxanalar, tibb ocaqları tikilir, bir sözlə, vətəndaşların sağlamlığının qorunması istiqamətində əməli işlər görülür. Cənab Prezident, Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Allahdan möhkəm cansağlığı arzu edirəm. Ümid edirəm ki, Sizin uzaqgörənliyiniz və böyük təcrübəniz sayəsində xalqımız bütün çətinlikləri arxada qoyacaq. Bir ziyalı kimi Sizə dərin minnətdarlığımı bildirirəm”.

Zaqatala şəhərindən **Turan Əsədov** dövlət başçısına minnətdarlıq edərək yazır: “Möhtərəm cənab Prezident, bütün dünya koronavirusla üz-üzə qaldığı vaxtda Sizin rəhbərliyinizlə dövlətimizin həyata keçirdiyi tədbirlər Azərbaycan xalqında böyük qürur hissi yaradıb. Bəşəriyyəti bürüyən bu bəladan qorunmaq üçün xalqa etdiyiniz müraciətlər, qısa müddətdə çoxlu sayda laboratoriyanın, modul tipli xəstəxanaların istifadəyə verilməsi, tibbi maska istehsal edən müəssisənin açılışı, sosial paketlərin həyata keçirilməsi sübut etdi ki, ölkəmizdə bütün lazımi addımlar yüksək səviyyədə atılır. Koronavirus pandemiyası ilə əlaqədar həyata keçirdiyiniz bütün bu qabaqlayıcı tədbirlər xalqımıza olan məhəbbət və sevginizin təzahürüdür. İndiki ağır günlərdə daim xalqımızı düşündüyünüz, ona dəstək olduğunuz və qayğısına qaldığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. İnanırıq ki, bu çətin günlər tezliklə arxada qalacaq, xalqımız bu bəladan xilas olacaq və ölkəmizdə həyat yenidən əvvəlki axarına düşəcək”.

Biləsuvar rayonunun Günəşli kəndindən **Bəhruz Nəbili:** “Hörmətli cənab Prezident, Sizin kənd təsərrüfatına göstərdiyiniz diqqət və qayğı, xüsusilə də pandemiya dövründə verdiyiniz sərəncamlar əhalinin məşğulluğunun daha da artması üçün böyük perspektiv vəd edir. Biləsuvar aqrar rayon olduğu üçün buranın əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı verdiyiniz sərəncamlar rayon sakinlərinin əməyə və zəhmətə həvəsini daha da artırır. Uzun illərdir ki, rayonumuzda su çatışmazlığı ucbatından yaranan bir çox çətinliklər əlimizi işdən soyutmuşdu. Bir müddət bundan əvvəl rayonumuzun bir neçə kəndinin, son sərəncamınızla isə Çinarlı kəndinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə vəsaitin ayrılması biz biləsuvarlıları çox sevindirdi. Göstərilən qayğıya görə bütün biləsuvarlılar adından Sizə dərin minnətdarlığımı bildirirəm”.

Şirvan şəhərindən **Rafiq Səfərov:** “Hörmətli cənab Prezident, Siz Azərbaycanda COVID-19 infeksiyasının qarşısının alınması istiqamətində böyük işlər görürsünüz. Bu ağır şəraitdə pandemiyaya qarşı mübarizə ilə əlaqədar gördüyünüz tədbirlər, səhiyyə sistemimizin günün tələblərinə uyğunlaşdırılması, əhalinin sosial rifah halının qorunması istiqamətində atdığınız addımlar, insanlarımıza verdiyiniz dəyər xalq tərəfindən alqışlanır. Cənab Prezident, bizə verdiyiniz dəyərin ölçüsü yoxdur. Mən ailə üzvlərimizlə birlikdə vətəndaşlarımıza göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə dərin təşəkkürümü bildirirəm. İnanırıq ki, yaşadığımız bu mürəkkəb dövr tez bir zamanda sona çatacaq, Sizin rəhbərliyinizlə Azərbaycan daha da inkişaf edəcək. Azərbaycanın işıqlı gələcəyi Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı kimi Sizin həyata keçirdiyiniz uzaqgörən siyasətlə bağlıdır. Sizə bu çətin və şərəfli yolda daim uğurlar arzu edirik. Biz şirvanlıların xeyir-duası həmişə Sizinlədir. Allah Sizi qorusun!”.

Bakının Binəqədi rayonundan **Orxan Bəylərov:** “Möhtərəm cənab Prezident, Siz cəmiyyətimizi və dövlətimizi vəzifə səlahiyyətlərindən sui-istifadə edən məmurlardan qorumaq, qeyri-qanuni hərəkətlərə yol vermiş şəxsləri ifşa etmək və onları cəzalandırmaq üçün əlinizdən gələni edir, bununla bağlı göstərişlər verirsiniz. Sizin bu cür obyektiv, ədalətli olmağınız biz sadə vətəndaşların Sizə olan məhəbbətini, inam və etibarını daha da artırır. Buna görə Sizə təşəkkür edir, “Çox sağ olun” deyirik. Xalqımızın xoşbəxtliyi, Vətənimizin bütövlüyü və inkişafı naminə böyük Yaradan Sizə hər zaman yar olsun!”

Saatlı rayonunun Əliabad kəndinin sakinləri **İsmayıl Əliyev, Bahadur Mirzəyev, Əliabbas Namazov, N.Əliyev** və **X.Niyazov** yazırlar: “Möhtərəm cənab Prezident, Siz çıxışlarınızda bildirirsiniz ki, məmurlar xalqın xidmətçisidir və xalqa xidmət etməlidirlər. Biz bu gün bu sözlərin, məmurlar qarşısında qoyduğunuz tapşırıqların real nəticələrini görürük. Saatlı rayonunda da Sizin dəyərli sözlərinizin təsiri hiss olunmaqdadır. Belə ki, rayonumuzda su qıtlığının aradan qaldırılması, təsərrüfatların suvarma suyu ilə təminatı üçün lazımi işlər görülür. Bunun üçün böyük işçi qüvvəsi, texnika cəlb edilmişdir. Cənab Prezident, kənd təsərrüfatının inkişafına, fermerləri narahat edən məsələlərin həllinə bu cür səy göstərdiyinizə görə Sizə minnətdarıq. Əhaliyə olan xoş münasibət Sizin çıxışlarınızdan, tapşırıqlarınızdan qaynaqlanır. Allah işlərinizi avand eləsin!”

Bakı şəhərindən **Kamal Mənsimov:** “Möhtərəm cənab Prezident, insanların bu öldürücü virusla üz-üzə qaldığı bir vaxtda Siz öz vətəndaşlarınızın yanında olduğunuzu bir daha göstərdiniz. Sizin təşəbbüsünüzlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı və Siz birillik əməkhaqqınızı həmin fonda köçürdünüz. Həmçinin Siz xəstəliyin geniş yayılmaması üçün xalqa müraciət edərək bu çətin günlərdə hamını bir olmağa, karantin qaydalarına əməl etməyə çağırdınız. Sizin hər kəsə göstərdiyiniz diqqət və qayğı biz vətəndaşları ürəkləndirir və Sizin hər bir vətəndaşın Prezidenti olduğunuzu bir daha sübut edir. Sizin bu cür obyektiv, ədalətli olmağınız biz sadə vətəndaşların Sizə olan məhəbbətini, inam və etibarını daha da artırır. Buna görə Sizə təşəkkür edir, “Çox sağ olun” deyirik. Xalqımızın xoşbəxtliyi, Vətənimizin bütövlüyü və inkişafı naminə böyük Yaradan Sizə hər zaman yar olsun!”

Salyan rayonunun Ərəbqardaşbəyli kəndinin sakinləri **Samit Quliyev, Həbib Seyidov, Yusif Əliyev, Məryəm Abdullayev** və **Alim Cəfərov:** “Möhtərəm cənab Prezident, koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin tətbiq edilməsi, “Biz birlikdə güclüyük!” çağırışınız, aztəminatlı ailələrə və şəhid ailələrinə göstərdiyiniz maddi və mənəvi yardımlar, sosial yardıma ehtiyacı olan insanlara verilən birdəfəlik ödənişin 600 min nəfərə şamil edilməsi, ən nəhayət, insan amilinə verdiyiniz yüksək dəyər Azərbaycan xalqını bir daha əmin etdi ki, onun Sizin kimi müdrik Prezidenti və qətiyyətli Ali Baş Komandanı var. Pandemiya ilə mübarizə sahəsində həkimlərimizin də rolunu qeyd etmək istəyirəm. Akademik Zərifə xanım Əliyeva vaxtilə demişdir: “Həkim insanlara Günəş qədər lazımdır”. Biz bu gün bu sözlərin nə qədər dəyərli olduğunun bir daha şahidiyik. Həkimlərimiz də çox sağ olsunlar ki, böyük ruh yüksəkliyi ilə çalışırlar. Əziz Prezidentimiz, bu çətin vaxtda sosial layihələrin icrasının dayandırılmaması biz vətəndaşları sevindirir. Kəndimizdə 180 yerlik ən müasir tələblərə cavab verən məktəb tikilmişdir. Bu da Sizin Azərbaycan təhsilinə verdiyiniz qiymətin təzahürüdür. Bundan əlavə, kəndimizdə yeni internet və telekommunikasiya xətləri çəkilmiş və əhalinin istifadəsinə verilmişdir. İnternetlə dünyaya çıxış gənc nəslin elminin və dünyagörüşünün inkişafında mühüm rol oynayır. Göstərdiyiniz bütün bu diqqət və qayğıya görə kəndimizin sakinləri adından Sizə təşəkkür edir və siyasətinizi daim dəstəklədiyimizi bildiririk”.

Bakının Suraxanı rayonunun Hövsan qəsəbəsindən **Mehriban Əsgərova:** “Çox dəyərli və hörmətli Prezidentim, dönüb keçmişə nəzər salanda, Azərbaycanımızın nə qədər inkişaf etdiyini, necə gözəlləşdiyini görəndə insanın ürəyi fəxr hissi ilə dolur. Bu inkişafın xüsusilə Sizin prezidentlik dövrünüzdə baş verməsi danılmaz faktdır. Ölkəmizə rəhbərlik etdiyiniz dövrdən bu günə qədər bütün çətinliklərin öhdəsindən əzmlə gələrək uğurlar əldə etmiş, Vətənimizin dünyanın inkişaf etmiş ölkələri arasında layiqli yer tutmasına nail olmusunuz. COVID-19 pandemiyasının bütün dünyada kütləvi insan tələfatına səbəb olduğu hazırkı zamanda Sizin tərəfinizdən və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Azərbaycanın bu bəladan qorunması üçün zamanında və operativ tədbirlər görməyiniz, aztəminatlı ailələrə humanitar, maddi yardımlar ayırmağınız, sahibkarlara dəstəyiniz göz önündədir. Təbii ki, mən də bir vətəndaş olaraq bunları görürəm və qiymətləndirməyə bilmərəm. Sizə və Mehriban xanıma dərin təşəkkürümü bildirirəm. Sağ olun, cənab Prezident”.

Şəki rayonunun Kiçik Dəhnə kəndindən **Nüsrət Haqverdiyev** yazır: “Hörmətli cənab Prezident, Sizin aqrar sahəyə ayırdığınız diqqət, göstərdiyiniz qayğı kəndlilərin torpağa, əkin-biçinə marağını daha da artırmışdır. Məlum olduğu kimi, hazırda ölkəmizdə suvarma suyu ilə bağlı çətinliklər vardır. Bu çətinliklərin aradan qaldırılması üçün Sizin mütəmadi olaraq sərəncamlar imzalamağınız, lazımi göstərişlər verməyiniz məsələnin həllində əvəzsiz rol oynayır. Həm yeni suvarma kanalları çəkilir, həm də respublikamızın müxtəlif bölgələrində subartezian quyuları qazılaraq istifadəyə verilir. Bizim Kiçik Dəhnə kəndində son bir ayda 2 yeni subartezian quyusu yerli sakinlərin sərəncamına verilmişdir. Həmçinin bir subartezian quyusu təmir olunmuş və yararlı vəziyyətə gətirilmişdir. Əziz Prezidentimiz, kəndlilərin Sizə minnətdarlığı və alqışı sonsuzdur. İndi növbəti əkin işlərinə həvəsimiz daha da çoxalıb. Çalışacağıq ki, tarlalardan bol məhsul götürək, öz işimizlə göstərilən diqqətin qarşılığını verək. Allah işlərinizi avand eləsin!”

Ağcabədi rayonunun Yeni Qaradolaq kəndindən **Cavid İsmayılov:** “Çox hörmətli cənab Prezident, bütün dünyanın COVID-19 pandemiyası ilə mübarizə apardığı bu çətin dövrdə verdiyiniz doğru qərarlar və apardığınız uzaqgörən siyasət bizi bu gözəgörünməz düşmənin daha böyük təsirlərindən qorumaqdadır. Bu gün dünya dəhşətli pandemiya ilə mübarizə aparır. Dünyada hər gün minlərlə insan həlak olur. Lakin biz Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkəmizin pandemiya ilə mübarizədən alnıaçıq çıxacağına ümidliyik. Yüksək təhlükəsizlik tədbirləri, xüsusi karantin rejiminin tətbiqi və vaxtında verdiyiniz digər bu kimi qərarlar təqdirəlayiqdir. Hörmətli cənab Prezident, xalqımızın sağlamlığı və xoşbəxtliyi üçün göstərdiyiniz xidmətlərə görə Sizə dərin təşəkkürümü bildirir, Sizə və ailənizə, əzizlərinizə xoşbəxtlik, cansağlığı, yeni-yeni uğurlar arzulayıram”.

İsmayıllı şəhərindən **Vüqar Muradəliyev:** “Möhtərəm cənab Prezident, İsmayıllı rayonunun 7 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 10 subartezian quyusunun qazılması məqsədilə imzaladığınız 2020-ci il 1 iyul tarixli sərəncam İsmayıllı sakinlərini ürəkdən sevindirir. Qazılması nəzərdə tutulan subartezian quyularından 2-si İsmayıllı şəhərinin payına düşür. Bu subartezian quyuları söz yox ki, şəhər əhalisinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasında və içməli suya olan tələbatın ödənilməsində böyük rol oynayacaqdır. Cənab Prezident, İsmayıllıya və onun sakinlərinə göstərdiyiniz diqqət və qayğıya görə şəhər ziyalıları, ağsaqqalları və bütün sakinlərimiz adından Sizə dərin təşəkkürümüzü bildirir, gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Heç şübhəsiz ki, Sizin rəhbərliyinizlə ölkəmiz inkişafın ən yüksək mərhələsinə çatacaq və Azərbaycan xalqı daha xoşbəxt gələcəyə qovuşacaqdır”.

Zaqatala rayonunun Əliabad qəsəbəsindən **Kamran Məmmədov** və **Səməd Vahabov** yazırlar: “Hörmətli cənab Prezident, əvvəla Sizi səmimi-qəlbdən salamlayıram. Hazırda koronavirus pandemiyası dünya ölkələrini təşvişə salaraq, iqtisadi böhran yaratmaqdadır. Təəssüflər olsun ki, bu virus ölkəmizdən də yan keçmədi. Bu gün ölkəmizdə də bir çox insan bu virusun təsirindən əziyyət çəkməkdədir. Lakin danılmaz faktdır ki, məhz Sizin uzaqgörən, qabaqlayıcı tədbirləriniz və səyləriniz sayəsində Azərbaycanda digər ölkələrlə müqayisədə bu virusa yoluxanların sayı azlıq təşkil etməkdədir. Pandemiya ölkəmizdə yayılmağa başlayandan virusa yoluxan xəstələr üçün müasir standartlara cavab verən xüsusi xəstəxanaların istifadəyə verilməsi, xalqımızın maddi rifahı üçün sosial tədbirlərin həyata keçirilməsi Sizin uzaqgörən siyasətinizin nəticəsidir. Cənab Prezident, bütün bu işlərinizlə xalqımızın yanında olduğunuzu bir daha göstərdiniz. Buna görə Sizə dərin təşəkkürümüzü bildirir və Allahdan Sizə cansağlığı arzulayırıq”.





# UNESKO-nun irsi - İçərişəhər - Bakının incisi

Hər bir dövləti, xalqı tanıdan xüsusi meyarlar var ki, bunlardan yan keçmək mümkün deyil. Bu gün mədəni, tarixi irsi qoruyub saxlamadan cəmiyyətin, dövlətin gələcək inkişafından bəhs etmək olmaz. Cəmiyyətin gələcək inkişafı isə keçmişdən miras qalan milli-mədəni, tarixi irsi bu gün qoruyub saxlamaqla gələcək nəsillərə ötürməkdən keçir. Bu baxımdan hər bir Azərbaycan vətəndaşı özünü xoşbəxt saya bilər ki, ölkəmizin milli-mədəni irsinin təbliğində, onun qorunmasında düşünülmüş ardıcıl siyasət aparılır. Azərbaycan bu sahədə öz uğurlu modelini yarada bilib və milli-mədəni, tarixi irsinin qorunması işini nəticəyönümlü nailiyyətlərlə yerinə yetirir.

Cari ildə Azərbaycan Ulu Öndər Heydər Əliyevin hələ sovet illərində diqqəti və qayğısı nəticəsində Dövlət Tarix-Memarlıq Qoruğu elan edilmiş İçərişəhərin, Şirvanşahlar sarayı kompleksi və Qız qalası daxil olmaqla, UNESKO-nun Ümumdünya İrs siyahısına daxil edilməsinin 20 illiyini qeyd edir. Belə bir nüfuzlu, beynəlxalq əhəmiyyətli təşkilata milli-mədəni, tarixi mirasımızın, nümunələrimizin qeydə alınması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən yürüdülən siyasətin bariz nümunəsidir. Məhz bu uğurlu fəaliyyətin nəticəsidir ki, Azərbaycan UNESKO ilə aktiv və səmərəli əməkdaşlıq edir. 28 ildir UNESKO-nun üzvü olan dövlət kimi ötən illər ərzində bir sıra tarixi qoruqlarımız, ərazilərimiz bu təşkilatın Ümumdünya İrs Siyahısına daxil edilib.

Azərbaycanın bu təşkilat ilə əlaqələrinin möhkəmlənməsi Heydər Əliyev Fondunun və onun rəhbəri, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük xidmətlərinin nəticəsidir. Yarandığı vaxtdan Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin tanıdılmasına, qorunmasına xüsusi önəm verib və bu fəaliyyətin əməli nəticəsi kimi milli-mənəvi dəyərlərimizin vacib nümunələri UNESKO-nun Ümumdünya İrsi Siyahısına salınıb. Ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası, Azərbaycan musiqisinin xaricdə tanıdılması, təbliği istiqamətində mühüm tədbirlər həyata keçirilib. Klassik və müasir Azərbaycan ədəbiyyatının nümunələrinin xarici dillərə, dünya ədəbiyyatının incilərinin Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmasına, ölkəmizin tarixi həqiqətlərini, milli mədəniyyətimizi və incəsənətimizi əks etdirən çoxsaylı çap məhsullarının hazırlanmasına fond tərəfindən xüsusi dəstək verilib. Heydər Əliyev Fondu ötən illər ərzində mədəniyyətimizə mühüm töhfələr verib, bu gün də milli-mənəvi dəyərlərimizin təbliğində və qorunmasında öz xidmətlərini uğurla davam etdirməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ildə Azərbaycan xalqının milli sərvəti İçərişəhərin Şirvanşahlar sarayı kompleksi və Qız qalası ilə birlikdə UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20 illiyi münasibətilə dövlət tədbirlərinin keçirilməsinə dair imzaladığı sərəncam milli-mənəvi dəyərlərə dövlətimiz tərəfindən verilən önəmin bariz nümunəsidir. Sərəncamdan irəli gələrək bir sıra tədbirlər həyata keçirilir, dünyada milli-mədəni irsimiz təbliğ olunur. Böyük qürur hissi ilə deyə bilərəm ki, Bakının incisi - İçərişəhər yalnız Azərbaycanın, xalqımızın deyil, həm də bütün dünyadan olan turistlərin sevərək ziyarət etdiyi, dərin tarixi köklərə dayanan Azərbaycan milli mədəniyyətinin nümunələrindəndir.

Çox təəssüf ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində ölkəmiz bütün milli-mədəni və tarixi abidələrinə, qoruqlarına sahib çıxa bilmir. Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılır, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərimizdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimlərimizi erməniləşdirir. Ancaq hər bir azərbaycanlı inanır ki, Azərbaycanın tarixi torpaqları işğaldan azad olunacaq, "əsir abidələr"imiz yenidən dünyada tanıdılacaq, onların bir çoxu UNESKO-nun Ümumdünya İrs Siyahısına Azərbaycan Respublikasına aid məkanlar olaraq daxil ediləcəkdir. Çünki Azərbaycan dövləti və xalqı "əsir torpaqlarına və abidələri"nə sahib çıxmağa gedən yolu işıqlı sonluqla nəticələndirməyi bacaracaq gücə, əqidəyə, sözə sahibdir. Ən əsası, haqq davasında qalib olacaq tərəf də Azərbaycandır və hər bir azərbaycanlı kimi mən də buna inanıram! Bakının incisi - İçərişəhərimizdən əzəli torpağımız olan Şuşadakı qalamıza qədər gedəcək yolumuz açıq olsun, əziz Azərbaycan!

***Gültəkin HƏBİBLİ,***
***Azərbaycanın İndoneziyadakı səfirliyinin müşaviri***

# Dövlət Məşğulluq Agentliyi iqtisadiyyatın aktual sahələri üzrə peşə və ixtisaslara dair tanıdıcı videoçarxlar hazırlayıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən iqtisadiyyatın aktual sahələrini əhatə edən 50 peşə və ixtisas üzrə tanıdıcı videoçarxlar hazırlanıb.




Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, videoçarxlarda seçilmiş peşə və ixtisaslar üzrə tələb olunan bilik və bacarıqlara dair məlumat verilir. Həmin peşə və ixtisaslara necə və harada yiyələnməyin, onlarla hansı iqtisadi fəaliyyət sahələrində işləməyin mümkün olduğu diqqətə çatdırılır.

Videoçarxların hazırlanmasında məqsəd əmək fəaliyyətinə başlamağa hazırlaşan gənclərin əmək bazarının tələblərinə uyğun düzgün peşə, ixtisas seçiminə dəstək göstərməkdir.

# Siyasi partiyalar arasında geniş müzakirələrin aparılması üçün görüş keçirilib

**Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyaların sədrləri və nümayəndələri tərəfindən Azərbaycanda siyasi partiyalar arasında geniş müzakirələrin aparılması üçün iyulun 7-də videokonfrans formatında görüş keçirilib. Görüşdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev də iştirak edib.**







Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, "Azərbaycanda yeni siyasi konfiqurasiya: Pandemiya dövrü və yeni çağırışlar" mövzusunda keçirilən görüşü giriş sözü ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, olduqca aktual mövzuya həsr edilən tədbirdə pandemiya dövründə meydana çıxan yeni çağırışlar fonunda siyasi sistemin əsas elementləri olan siyasi partiyaların fəaliyyəti müzakirə ediləcək. O, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən siyasi islahatların gətirdiyi şərtlərin bütövlükdə ölkədə yeni dialoq və əməkdaşlıq mühiti yaratdığını, bu mühitin başlıca komponentlərinin isə dövlət başçısının VI çağırış Milli Məclisin ilk iclasındakı nitqində aydın şəkildə göstərildiyini diqqətə çatdırıb. S.Qafarova qeyd edib ki, ölkə Prezidentinin dərin məzmunlu, kifayət qədər konseptual tarixi nitqi siyasi sistemin də komponentlərini və perspektivlərini əhatə etməklə siyasi konfiqurasiyada və ictimai münasibətlər sistemində yeni tarixi mərhələ kimi qiymətləndirilə bilər.

Parlamentin ölkədə həyata keçirilən siyasi islahatların daha uğurlu nəticələrlə müşayiət olunmasında mühüm rola malik olduğunu vurğulayan S.Qafarova VI çağırış Milli Məclisdə rəhbər orqanların tam dəyişdirildiyini, ilk dəfə olaraq müxalifət nümayəndəsinin Milli Məclis Sədrinin müavini vəzifəsinə seçildiyini, bununla yanaşı, müxalifət nümayəndələrinin həm sədr, həm də müavin vəzifələrində parlamentin komitələrinə başçılıq etdiklərini xatırladıb. O deyib ki, bu addım ölkədə siyasi sistemin yeni konfiqurasiyasına yol açmaqla yanaşı, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərir və artıq başa çatmış yaz və növbədənkənar sessiyalarda parlamentin uğurla fəaliyyət göstərməsi, eləcə də buna münasibətdə ümumi ictimai rəyin müsbət olması həyata keçirilən islahatların nəticəsi kimi qiymətləndirilə bilər. Bu dövr ərzində qlobal pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, Milli Məclis üzərinə düşən vəzifələrin öhdəsindən gəlməyə çalışıb: yaz sessiyasında 12 iclas keçirilib, 123 qanun və qərar, o cümlədən 2 konstitusiya qanunu qəbul edilib. Milli Məclisin iclaslarında Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan hüquqları üzrə müvəkkilin, Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun hesabat və məruzələri dinlənilib. İyunun 30-da başa çatan növbədənkənar sessiya dövründə isə Milli Məclisin 8 iclası keçirilib, 35 qanun və qərar qəbul edilib.

Milli Məclisin Sədri həmçinin qeyd edib ki, parlament cəmiyyətdə mövcud olan əsas siyasi qüvvələrin, cərəyanların və fikirlərin bütün spektrini tam əks etdirir, siyasi dialoq, milli və dövlətçilik məsələləri ətrafında əməkdaşlıq mühitinin möhkəmlənməsi Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulmasına xidmət edir.

Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti tərəfindən dövlət idarəçiliyinin bütün istiqamətlərini əhatə edən çoxşaxəli islahatlar aparıldığını, ölkənin daha da qüdrətlənməsi və dünya birliyində yüksək mövqe tutması, xalqın rifah halının daha da yüksəldilməsi üçün genişmiqyaslı tədbirlər görüldüyünü, eləcə də həyata keçirilən müxtəlif xarakterli dövlət proqramlarının cəmiyyətin bütün üzvlərini əhatə etməsinin diqqətdə saxlanılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin danılmaz xidmətləri olduğunu görüş iştirakçılarının nəzərinə çatdırıb.

Ədalət Vəliyev aparılan köklü struktur və kadr islahatlarına toxunaraq, Prezident Administrasiyasında ilk dəfə olaraq xüsusi struktur bölməsinin yaradılmasının ölkə rəhbərliyinin siyasi partiyalarla müntəzəm iş aparılması, sağlam əməkdaşlığın qurulması, habelə Milli Məclis ilə daha nizamlı əlaqələrin təşkili işinə verdiyi əhəmiyyətdən irəli gəldiyini diqqətə çatdırıb, şöbə tərəfindən dövlət başçısının tapşırığı ilə indiyə qədər görülmüş işlər, aparılmış təhlillər, siyasi partiyalarla yaxından tanışlıq və əməkdaşlığa yönəlmiş çoxsaylı görüşlər, habelə konstruktiv əməkdaşlığın qurulması, yeni siyasi mədəniyyətin təşəkkülü barədə ətraflı məlumat verib. O bildirib ki, ölkə Prezidentinin təşəbbüsü və iradəsi ilə Azərbaycanda artıq siyasi islahatların yeni mərhələsi başlanıb, siyasi sistemin yeni konfiqurasiyası formalaşmaqdadır və bu, iqtidar-müxalifət münasibətlərinin müzakirələr vasitəsilə inkişaf etdirilməsinə söykənir.

Sadalanan tədbirlərin ölkədə siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək məqsədi daşıdığını və çoxpartiyalı sistemin inkişaf etdirilməsinə yönəldiyini vurğulayan Ə.Vəliyev, həmçinin 9 fevral parlament seçkilərinin, habelə VI çağırış Milli Məclisin tərkibinin mütərəqqi yeniliklərinə diqqəti çəkib.

Siyasi islahatların dərinləşdirilməsi üçün növbəti mərhələnin Milli Məclisdə təmsil olunan siyasi partiyaların xüsusi yeri və rolu ilə aparılacaq partiyalararası konstruktiv siyasi müzakirələr olduğunu bildirən natiq Azərbaycan dövlətçiliyi üçün prinsipial olan məsələlərin milli həmrəylik yolu ilə həll edilməsinin vacibliyini qeyd edib. O, ölkə rəhbərliyinin koronavirus pandemiyası ilə mübarizədə həm ölkə daxilində, həm də qlobal miqyasda həyata keçirdiyi tədbirlər, habelə korrupsiyaya qarşı mübarizə tədbirləri barədə geniş məlumat verib.

Pandemiya dövründə dövlət başçısının siyasətinin prioritetinin insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsi olduğu, bütün zəruri qabaqlayıcı tədbirlərin görüldüyü, xəstələrin ödənişsiz müalicəsi üçün onlarca xəstəxana ayrıldığı, eləcə də 10 müasir modul tipli xəstəxana tikildiyi, istifadəyə verildiyi, zəruri tibbi avadanlıqlar alındığı, qısa müddət ərzində ölkədə lazımi tibbi ləvazimatların istehsalına başlanıldığı, habelə iqtisadi sabitliyin və məşğulluqla bağlı problemlərin həlli üçün 3,5 milyard manatdan artıq dəstək paketi qəbul olunduğu, 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə saxlanılmaqla, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsinin dövlət tərəfindən ödənildiyi, bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa yaşayış minimumuna uyğun olaraq vəsait ödənilməsinin təmin olunduğu və bu işin davam etdirildiyi, eləcə də vergiödəyiciləri üçün vergi güzəştləri və vergi tətillərinin nəzərdə tutulduğu Prezident Administrasiyasının şöbə müdiri tərəfindən diqqətə çatdırılıb. Görülən tədbirlər çərçivəsində dövlət başçısının təşəbbüsü ilə həm də rəmzi məna daşıyan və Azərbaycan cəmiyyətinin həmrəyliyini nümayiş etdirən Koronavirusla Mübarizəyə Dəstək Fondunun təsis edildiyi, həm ölkə Prezidenti, həm də Birinci vitse-prezident tərəfindən özlərinin birillik əməkhaqqı məbləğlərinin fonda ianə edilməsinin xüsusi rəğbət doğurduğu, eyni zamanda Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondu vasitəsilə qayğıya ehtiyacı olanlara bu çətin günlərdə göstərilən yardımların insanpərvərliyin və milli həmrəyliyin bariz nümunəsi olduğu vurğulanıb.

Ə.Vəliyev qeyd edib ki, Ümumdünya Səhiyyə Təşkilatının pandemiya ilə mübarizədə nümunəvi hesab etdiyi Azərbaycan tərəfindən həmçinin könüllü beynəlxalq ianələr ayrılıb, 30-dan artıq dövlətə humanitar yardımlar edilib. Bununla yanaşı, 150 ölkənin kredit üçün müraciət etdiyi şəraitdə Azərbaycanın dayanıqlı iqtisadiyyatı sayəsində buna ehtiyacı olmadığı bildirilib. Bu dövrdə Azərbaycanın qlobal liderlik nümayiş etdirərək nüfuzlu beynəlxalq təşkilatların yüksək səviyyəli görüşlərinin təşəbbüskarı kimi çıxış etdiyi iştirakçıların diqqətinə çatdırılıb.

Prezident Administrasiyasının rəsmisi Azərbaycanda həyata keçirilən islahatların prioritet istiqamətlərindən biri olan korrupsiyaya qarşı mübarizənin pandemiya şəraitində də səngimədiyinə toxunaraq, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən yüksək peşəkarlıqla həyata keçirilən tədbirlər barədə də danışıb. O, həmçinin pandemiya dövründə ölkədəki siyasi partiyaların mütləq əksəriyyətinin dövlət başçısının siyasətini yaxından dəstəklədiyini, Azərbaycanda iqtidar ilə müxalifət arasında milli maraqlar naminə indiyədək müşahidə edilməyən yaxınlaşmanın və ölkənin siyasi mühitində sağlam əməkdaşlıq şəraitinin meydana gəldiyini vurğulayıb. Çıxışının sonunda Ə.Vəliyev siyasi partiyaları dövlətçiliyin möhkəmləndirilməsi üçün birgə əməkdaşlıqda səylərini artırmağa çağırıb.

Daha sonra Milli Məclisdə təmsil olunan siyasi partiyaların nümayəndələri olan deputatlar müxtəlif mövzularda çıxış ediblər.

Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Azərbaycanda koronavirus pandemiyasına qarşı mübarizədə görülən tədbirlərin miqyasından və səmərəliliyindən danışaraq respublikamızın bu sahədə qlobal səviyyədə nümunəvi dövlət olduğunu diqqətə çatdırıb.

Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa çıxışında pandemiya dövründə siyasi partiyaların davranışlarını təhlil edib. O, qeyd edib ki, bu mübarizədə dövlətin gördüyü tədbirlərlə yanaşı, siyasi təşkilatların fəaliyyətinin də mühüm rolu var.

Ana Vətən Partiyasının sədri, Milli Məclisin İntizam komissiyasının sədr müavini Fəzail Ağamalının çıxışı isə pandemiya şəraitində siyasi partiyalarla vətəndaş münasibətlərinin sağlam təməllər üzərində qurulması məsələlərini əhatə edib.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev koronavirus pandemiyasına qarşı mübarizədə beynəlxalq təşəbbüslərə toxunaraq Azərbaycanın bu istiqamətdə atdığı addımların dünya birliyi tərəfindən müsbət qarşılandığını bildirib.

Vətəndaş Həmrəyliyi Partiyasının sədri, deputat Sabir Rüstəmxanlı isə pandemiya dövründə ictimai maarifləndirmə və cəmiyyətin doğru məlumatlandırılmasında siyasi partiyaların rolundan danışaraq bu prosesdə doğru davranış qaydalarının təşviq olunmasında partiyaların üzərinə düşən vəzifələrin öhdəsindən gəlməsinin vacibliyini qeyd edib.

Vətəndaş Birliyi Partiyasının sədri, Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini Sabir Hacıyev pandemiya dövründə Azərbaycan dövlətinin sosial-iqtisadi təşəbbüslərini nəzərdən keçirərək bu sahədə həyata keçirilən genişmiqyaslı tədbirlərin əhəmiyyətini vurğulayıb.

Vəhdət Partiyasının sədri, Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli pandemiya dövründə vətəndaş cəmiyyəti institutları və birliklərinin davranışları haqqında çıxış edərək mövcud vəziyyət və perspektivləri diqqətə çatdırıb.

Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Asim Mollazadə çıxışında pandemiya dövründə qanunçuluğa riayət olunmasının əhəmiyyətindən danışaraq, eyni zamanda vətəndaş məsuliyyətinin yüksəldilməsinin vacibliyinə diqqəti çəkib.

Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri, Milli Məclisin Regional məsələlər komitəsinin sədr müavini Elşən Musayev isə pandemiya dövründə kütləvi informasiya vasitələrində, o cümlədən sosial mediada ictimai məsuliyyət məsələlərinə toxunub, bu istiqamətdə atılması vacib olan addımlardan danışıb.

Maraqlı müzakirələrlə keçən tədbirin sonunda Milli Məclisdə təmsil olunan siyasi partiyaların adından bəyanat qəbul olunub.

Bəyanatda Azərbaycan Respublikasının Prezidenti tərəfindən dövlət idarəçiliyində aparılan islahatların yeni mərhələsi qeyd edilərək, siyasi sistemi möhkəmləndirmək məqsədilə ölkənin yeni siyasi konfiqurasiyasının formalaşdırılmasına, həmçinin ölkədə çoxpartiyalı sistemin inkişaf etdirilməsinə, partiyalararası sağlam əməkdaşlıq mühitinin yaradılmasına yönəlmiş addımların təqdir edildiyi bildirilib, dövlətçilik üçün prinsipial olan məsələlərin milli maraqlar naminə səy birliyi və həmrəylik yolu ilə həll edilməsinin vacibliyi vurğulanıb, habelə Azərbaycan Respublikasının Prezidenti və Birinci vitse-prezidenti tərəfindən koronavirus pandemiyası ilə mübarizədə həm ölkə daxilində, həm də qlobal miqyasda həyata keçirilən tədbirlərin dəstəkləndiyi ifadə olunub.

Bəyanatda həmçinin Milli Məclisdə təmsil olunan siyasi partiyaların ölkədə siyasi partiyalar arasında geniş konstruktiv müzakirələrin aparılması prosesində xüsusi yeri və roluna diqqət çəkilərək, Ermənistanın təcavüzkar siyasətini davam etdirdiyi, beynəlxalq və regional geosiyasi proseslərin doğurduğu yeni təhdidlərin mövcudluğu, habelə bütün bəşəriyyəti hədələyən koronavirus pandemiyası ilə mübarizədə milli və beynəlxalq səylərin artırılmasının zəruriliyi şəraitində siyasi partiyalar qarşısında birgə məqsədyönlü fəaliyyət üçün duran vəzifələr elan olunub.

Bu vəzifələrə Ermənistanın təcavüzkar siyasəti barədə dünya birliyinin davamlı məlumatlandırılması, eləcə də Azərbaycan Respublikasının demokratik, hüquqi, dünyəvi dövlət olduğunun, Azərbaycan xalqının sülhpərvərliyinin və tolerantlığının, eləcə də zəngin mədəniyyətinin beynəlxalq auditoriyaya hərtərəfli çatdırılması, ölkədə geniş vüsət alan islahatların nəticələrinin təhlili və yeni perspektivlərin müəyyən edilməsi üçün təkliflərin verilməsi, koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycan dövlətinin yerli və beynəlxalq təşəbbüslərinin dəstəklənməsi və onların əhəmiyyətinin təbliği, bu istiqamətdə səylərin birləşdirilməsi ilə çoxtərəfli fəaliyyətin həyata keçirilməsi, habelə ölkədə partiyalararası geniş siyasi müzakirələrin baş tutması və dərinləşməsi üçün qarşılıqlı səylər göstərilməsi və s. daxildir.



# Qlobal miqyaslı lider

*Əvvəli 1-ci səh.*

❖ ❖ ❖

Əfsuslar olsun ki, son onilliklərdə fərdiyyətçilik düşüncəsi təkcə insanların deyil, ayrı-ayrı dövlətlərin davranışlarına, yanaşmalarına da keçməkdə idi. Böyük dövlətlər, onları idarə edən rəhbərlər özünütəcrid xəstəliyinə yoluxmuşdular elə bil. Sərgilədikləri tərzdən, yürütdükləri siyasətin, verdikləri qərarların mahiyyətindən belə nəticə çıxırdı ki, bu dövlətlər üçün artıq başqaları deyilən bir anlayış yoxdur. Ümumi faydalar naminə əməkdaşlıq niyyəti onlar üçün öz ömrünü başa vurub. Özlərini qlobal tərəqqinin əsas hərəkətverici qüvvəsi sayan bu dövlətlər, siyasi liderlər, cəmiyyətlər inkişaf nailiyyətlərini, mövcud resursları daha kiminləsə bölüşmək niyyətində deyillər.

Necə deyərlər, başlı başını saxlasın...

Qəfildən yaranan COVID-19 böhranı isə bir daha sübut etdi ki, dünyada özgə dərdi heç zaman yoxdur, müasir dünyamızda isə heç yoxdur.

Dünyanın ziyanları, itkiləri, hamıya eyni dərəcədə toxunan bəlaları heç zaman bitib-tükənən deyil. Bəşəriyyət bu bəlalara qarşı immuniteti özünütəcridlə yox, yalnız həmrəyliyi, vəhdəti, əməkdaşlığı daha da gücləndirməklə, ümumbəşəri dəyərlərə tapınmaqla formalaşdıra bilər.

Bu pandemiyanı üçüncü dünya müharibəsi adlandıranlar tam haqlıdırlar. Bu, həqiqətən üçüncü dünya müharibəsidir və müəyyən mənada əvvəlki iki müharibədən də qorxuludur. Real müharibədən fərqli olaraq, burada bəşəriyyət gözəgörünməz düşmənlə üz-üzədir, onun hansı cinahlardan həmlə edəcəyi, qüvvəsi, cəbbəxanası bilinmir. Bu müharibədə arxa cəbhə, ön cəbhə anlayışı da yoxdur. Burada insanın olduğu hər yer döyüş xəttidir, müharibə meydanıdır, ölümcül virusun zəhərli nəfəsinin gəlib çatdığı yerdir.

Dünyanın heç də bütün ölkələri bu düşmənə qarşı vuruşda lazımi qədər “silah-sursat”a, “əsgəri qüvvə”yə malik deyil. Dünyadakı mövcud səhiyyə sistemi, tibb infrastrukturu, personal hətta hər nə qədər inkişaf etmiş olsa belə yenə də məhdud sayda insan üçün nəzərdə tutulub. Dünyanın heç bir ölkəsinin xəstəxanaları sayları hər gün az qala həndəsi silsilə ilə artan bu qədər yoluxmuş insanı eyni vaxtda qəbul etmək gücündə görünmür.

Üstəlik, dövlətlərin üzləşdiyi problemləri yoluna qoyan, lazımi infrastrukturu bir neçə günün içində düzüb-qoşan güclü iqtisadiyyatdır. Amma COVID-19 kabusu insanların sağlamlığı ilə bərabər, iqtisadiyyatı da yarımcan vəziyyətə salır, böyük zəhmət bahasına başa gəlmiş sosial-iqtisadi düzəni pozur, inkişafı əngəlləyir, bütün bunlar isə ümumən dünyanı böyük bir çıxılmazlığa məhkum edir.

❖ ❖ ❖

İndi dövlətlərin özünütəcridi ən böyük yanlış olar. Qlobal həmrəyliyə, məsələlərə qlobal baxışa bu günün dünyasında hər zaman olduğundan da böyük ehtiyac var.

Bəşəriyyət Birinci Dünya müharibəsini bu həmrəyliyin hesabına sonlandıra bilmişdi. İkinci Dünya müharibəsi zamanı əfi ilan kimi Yer üzünün köksünə sarılmış faşizm bəlasının kökünü də həmrəyliyin gücü sayəsində kəsmişdi. Yeni minilliyimizin bu, ilk ən miqyaslı bəlasından da qurtuluşun yeganə çarəsi yenə əl-ələ verməkdir. Bəşəriyyətin gələcəyə doğru yolunda çəpərə çevrilmiş maneənin üzərinə birgə yeriməkdir, bir-birinə həyan olmaqdır, ümumi qayğılarla yanaşı, ümumi imkanları, faydalı təcrübələri, qlobal suallara mümkün cavabları da bölüşməkdir və birliyin gücü ilə problemləri gələcək üçün yeni imkanlara çevirməkdir.

Bu həqiqətdən vaxtında nəticə çıxarmadan özünü qırağa çəkmək, bəşəriyyətin bu günü və gələcəyinə görə məsuliyyəti özündən kənarlaşdırmaq, ölkələri də, insanları da özləri ilə yalqız buraxmaq dünyamız üçün pandemiyalardan da dəhşətli xəstəlik ola bilər.

❖ ❖ ❖

Bütün bunlar, yəqin ki, indi dünyada əksəriyyətin narahat qənaətləridir. Amma təkcə təlaşlı düşüncələr, qlobal həmrəylik arzuları ilə iş bitmir. Hər bir işdə olduğu kimi, gərək bu məsələdə də irəli düşən, başqalarında inam yaradan, həmrəylik təşəbbüslərinin reallığa çevrilməsi üçün lazımi tədbirlərin zəhmətinə qatlaşan fədakar liderlər, bacarıqlı təşkilatçılar olsun.

Həm də nəzərə almaq lazımdır ki, koronavirus pandemiyası müxtəlif sahələrdə olduğu kimi, beynəlxalq əməkdaşlığın miqyasına, qarşılıqlı kommunikasiyaların intensivliyinə də çox mənfi təsir göstərib. Sadə dildə desək, hər kəsin başının öz dərdinə, qayğılarına qarışdığı bu çətin günlərdə qarşılıqlı ünsiyyət, faydalı əməkdaşlıq üçün yeni formaların tapılmasına ehtiyac var.

Və bu formaları kimsə tapmalı, təşəbbüsü öz üzərinə götürməlidir.

❖ ❖ ❖

Bütün zamanlarda belə olub...

Tarixi örnəklər də, parlaq nümunələr də, vəziyyəti idarə etməyə qabil liderlər də adətən böhran anlarında önə çıxır.

Kimin kim olduğu, malik olduğu dəyərlər, niyyətlər, baxışlar belə məqamlarda müəyyənləşib konkretləşir. Bu mənada COVID-19 böhranı bəşəriyyətə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəxsində Azərbaycanı və bu dövlətin Lideri nümunəsini təqdim etdi.

Qərblə Şərqin təmas nöqtəsində yerləşən ölkəmiz son onilliklərdə dünyanın bu günü və gələcəyi üçün ayrı-ayrı sahələrdə bir çox inkişaf modelləri, qlobal məsələlərlə bağlı uyğun həllər formalaşdırmışdı. Azərbaycan pandemiya dövründə verilən qərarlar, həyata keçirilən tədbirlər, irəli sürülən beynəlxalq təşəbbüslər, məsələlərə bir günün prizmasından deyil, uzaq strateji baxışla dünya üçün daha bir nümunə yaratdı.

Hələ ölkəmizdə koronavirus pandemiyasına qarşı təcili və təxirəsalınmaz tədbirlərin başlandığı ilk günlərdən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Biz birlikdə güclüyük!” çağırışını irəli sürmüşdü.

Və demişdi ki, bu çağırış pandemiya bitəndən sonra da aktual olacaq.

Dövlətmizin rəhbərinin bu xitabını zaman Azərbaycan hüdudlarından kənara çıxararaq bütün bəşəriyyətin həssaslıq göstərməli olduğu qlobal çağırışa çevirdi.

COVID-19-un geniş miqyas aldığı ilk günlərdən cənab İlham Əliyevin pandemiyaya qarşı mübarizə üzrə regional və beynəlxalq səviyyədə irəli sürdüyü təşəbbüslər bu sahədə beynəlxalq həmrəyliyin gücləndirilməsinin nə qədər zəruri olduğunu aktuallaşdırdı.

Dünya Azərbaycan Prezidentinin qlobal həmrəylik məramlı təşəbbüsləri ətrafında bir araya gəldi.

Azərbaycan pandemiya dövründə ölkələr, xalqlar arasında qırılmış əlaqələri, bir-birindən təcrid olunmuş dünyanı yeni və müasir formatlarda beynəlxalq əməkdaşlıq təşəbbüsləri ilə bir yerə toparladı və “Biz birlikdə güclüyük” çağırışının əyani mənzərəsini cızdı.

❖ ❖ ❖

COVID-19-a qarşı mübarizə sahəsində ilk regional həmrəylik təşəbbüsü Prezident İlham Əliyevin hələ apreldə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri statusunda bu qurumda bir araya gələn dövlət və hökumət başçılarının fövqəladə Zirvə görüşünü keçirməsi idi.

Bu təşəbbüs sayəsində Türk Şurası COVID-19-a qarşı mübarizə mövzusunda Zirvə görüşü keçirən ilk beynəlxalq təşkilat oldu. Dünyanın əksər ölkələrində pandemiyanın genişlənməsi, kütləvi yoluxma və insan itkiləri səbəbindən böyük isterikanın yaşandığı günlərdə nümayiş etdirilən belə bir təmkinli yanaşma, Türk Şurası formatında aparılan faydalı müzakirələr və təqdim edilən uyğun həllər bütün dünyada böyük maraq doğurdu.

Hər kəs fərqində oldu ki, sərhədləri bir-birinin üzünə qapamaq problemdən çıxış yolu deyil. Fiziki sərhədlər möhkəmləndirildiyi qədər mənəvi sərhədlər ortadan götürülməlidir, ölkələr, xalqlar eyni düşmənə qarşı mübarizədə birləşməlidir. Ümumi evimiz olan dünyanı qorumaqdan ötrü hər kəs imkanlarını ortaya qoymalıdır. Azərbaycan Prezidentinin təşəbbüsü əsasında təşkil edilən həmin müzakirələr COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın genişləndirilməsinə diqqəti artırdı. Bu istiqamətdə yeni təşəbbüslərin ortaya çıxmasına şərait yaratdı.

❖ ❖ ❖

Qoşulmama Hərəkatının sədri olan Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun da COVID-19 pandemiyası ilə bağlı onlayn Zirvə görüşü keçirildi. Yada salaq ki, Qoşulmama Hərəkatı 120 ölkəni özündə birləşdirir və BMT-dən sonra dünya dövlətlərinin təmsil olunduğu ikinci ən böyük siyasi təsisat sayılır. Belə bir qurumun pandemiya mövzusuna Zirvə görüşü həsr etməsi tarixi əhəmiyyət daşıyır. Azərbaycan Prezidentinin təşəbbüsü ilə təşkil edilmiş Zirvə görüşünün tarixi rolunu, qlobal faydalarını şərtləndirən həm də o idi ki, burada təkcə Qoşulmama Hərəkatına üzv dövlətlərin rəhbərləri yox, BMT-nin Baş katibi, BMT Baş Assambleyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək çinli nümayəndələri də iştirak edirdilər.

Elə Azərbaycan Prezidenti cənab İlham Əliyev qlobal həmrəylik nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans formatında xüsusi sessiyasının keçirilməsi təklifini də Qoşulmama Hərəkatının onlayn Zirvə görüşündəki çıxışı zamanı irəli sürdü.

Bu təşəbbüs əsasında BMT Baş Assambleyasının koronavirus pandemiyasına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi barədə tarixi qərar qəbul edildi. Qərarın qəbuluna dünyanın 130 dövlətinin dəstək verməsi bir tərəfdən Azərbaycan Prezidentinin təklifinin qlobal əhəmiyyətini, digər tərəfdən beynəlxalq ictimaiyyətin ölkəmizə, dövlət rəhbərimizə olan böyük inamının göstəricisidir. Belə bir inamsa bir günün içində yaranmayıb. Cənab İlham Əliyev ölkəmizə də, Lider olaraq öz şəxsinə də bu inamı strateji düşüncə qabiliyyəti, təmkini, müdrik zəkası, təhlil bacarığı, qərarvermə əzmi ilə formalaşdırıb.

Bütün bunlar Azərbaycan Prezidentinin beynəlxalq miqyaslı problemlərin aradan qaldırılması yönündə irəli sürdüyü ilk təşəbbüslər deyil. Bu təşəbbüslərin qəbul edilib həyata keçirilənləri, öz məqsədinə çatıb, effektiv nəticələr yaradanları çox olub.



Dünya liderləri arasında aparılan müzakirələrin tam təfərrüatlarını bilmirik. Bununla belə ehtimallarımıza əsasən yəqinliklə deyə bilərik ki, cənab İlham Əliyevin indiyə qədər lazımi səviyyədə dəstək qazanmayan, yaxud öz vaxtında, məqamında faydaları başqaları tərəfindən lazımi şəkildə dərk edilməyən təşəbbüsləri də olub. Aradan zaman keçib və tarix bu təşəbbüslərin də nə qədər yerində irəli sürüldüyünü, böyük faydalar vəd etdiyini və həmin təşəbbüsü qəbul etməyənlərin o faydaları itirdiklərini sübuta yetirib. Ona görə də indi beynəlxalq siyasətin aparıcı simaları arasında belə bir əminlik var ki, əgər hər hansısa bir təklifi Azərbaycan Prezidenti irəli sürürsə, deməli, o təklifin perspektivlərinə inanmağa dəyər.

Cənab İlham Əliyevin təşəbbüslərini uğurlu edənsə onun dünya reallıqlarını düzgün dəyərləndirə bilməsidir. Yanaşmalarının hər hansı populizmə deyil, soyuq başla aparılmış hərtərəfli analizlərə əsaslanmasıdır. Qlobal trendlərlə bağlı zəngin informasiyalara söykənməsidir. Mövcud reallıqların, meyillərin necə bir gələcəyə doğru aparması ilə bağlı aydın vizyona sahib olmasıdır.

Təbii ki, bütün bunları tamamlayan Azərbaycan Prezidentinin zəngin idarəçilik təcrübəsi, beynəlxalq münasibətlər sistemi və qlobal iqtisadiyyat haqqında geniş bilikləri, dünyanın bu günü qədər tarixi haqqında da dərin biliklərə sahib olmasıdır.

❖ ❖ ❖

BMT Baş Assambleyasının koronavirus pandemiyasına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi dünyaya nə verəcək?

Bu sual, yəqin ki, dəyərli oxucularımı da maraqlandırır. Belə bir sessiya, ilk növbədə, beynəlxalq ictimaiyyətin ümumi bəlaya qarşı toparlanmasına şərait yaradacaq. Nə gizlədək, qəfildən yaxalandığı böhrandan, pandemiyanın qısa zamanda bu qədər geniş miqyas almasından, ötən ilin bu gününə qədər heç kimin ağlına belə gəlməyəcəyi gözlənilməzliklərdən dünya indi param-parça, dağınıq haldadır. Çıxış yollarının müzakirəsindən, effektiv həllərin tapılmasından, gələcək üçün birgə addımların planlaşdırılmasından ötrü ölkələrin bir araya yığışması, obrazlı desək, dünyanın özünə gəlməsi çox mühümdür.

Bundan başqa, insanlarda COVID-19-la bağlı xeyli cavabsız qalmış suallar var. İnformasiya xaosunun, məqsədli-məqsədsiz ortaya atılan şübhələrin, yaradılan panikanın ziyanları az qala pandemiyanın gətirdiyi təhlükələrdən də böyükdür. Bunun bioloji silah olması barədə ortaya atılan iddialar doğrudurmu?! Əgər bu həqiqətən belədirsə, dünya belə təhdidlərə qarşı necə mübarizə aparmalıdır?! Virusa qarşı vaksinin tapılmasının bu qədər yubanmasına səbəb nədir?! Ümumiyyətlə, hazırda bu istiqamətdə hansı işlər gedir, hansı elmi proqramlar həyata keçirilir? Ölkələr elmi müstəvidə öz imkanlarını necə birləşdirə bilər? İqtisadi ləngimələrin aradan qaldırılması üçün hansı addımlar atılmalıdır və s.

Bütün bu suallara dünya ölkələrinin dövlət və hökumət başçıları səviyyəsində dünya parlamenti adlandırılan BMT Baş Assambleyasının xüsusi sessiyasında aydınlıq gətirilməsində çox böyük fayda var. Bu, cavabsız sualları ortadan götürər, qlobal etimadı və qarşılıqlı əməkdaşlığı möhkəmləndirər və dünyanın bəladan qurtuluşuna mühüm töhfə olar.

❖ ❖ ❖

Hər ziyanda bir xeyir olduğu kimi, COVID-19-un ziyanları ilə yanaşı, ölkələr və ümumilikdə dünya üçün yaratdığı yeni fürsətlər də var, açığı. İnnovativ inkişafın sürətləndirilməsi, rəqəmsallaşma trendləri, ölkələr arasında rəqəmsal uçurumun aradan qaldırılması, insanlara sosial qayğı, vətəndaşların sağlamlığının qorunması məsələləri, lazımi anlarda bizneslərə dəstək, ən əsası isə, yeni gözlənilməzliklərə hazırlıq postpandemiya dövrünün əsas zərurətləri olacaq.

Bəlkə heç özümüz də fərqinə varmadan sabit, rəvan, sadə, əvvəlcədən proqnozlaşdırıla bilən dünya bizim üçün çoxdan bitib. Biz “VUKA dünya”ya daxil olmuşuq. İngilis dilində Volatility (qeyri-stabillik), Uncertainty (qeyri-müəyyənlik), Complexity (mürəkkəb) və Ambiguity (birmənalı olmayan vəziyyətlər) sözlərinin qısaldılmasından yaranmış “VUKA dünya”nı qısa şəkildə gözlənilməzliklər dünyası da adlandıra bilərik. Hətta heç COVID-19 baş verməsəydi belə yenə də belə bir dünyanın sürətli dəyişikliklərinə uyğunlaşmaq çox çətindir.

Amma həyat uyğunlaşmağı tələb edir. “VUKA dünya”nı təhlil edən elmi mərkəzlər, ayrı-ayrı alimlər də yeni dünyada problemlərlə qarşılaşmamaq, maneələri imkanlara çevirməkdən ötrü məhz qarşılıqlı əməkdaşlığı, kommunikasiyaları, həmrəyliyi, təcrübə mübadiləsini, sistemli yanaşmanı, qərarlı olmağı və innovasiyaları mənimsəməyi vacib sayırlar.

Başqa tərəfdən, diqqət edirsinizmi artıq dünyada müharibələr dayanıb. Terror aktları xeyli səngiyib. Havanın çirklənməsi, ekoloji fəlakətlərin miqyası belə azalıb. Bəlkə bu müsbət məqamları postpandemiya dövründə də qoruyub saxlamaq üçün həllər tapıldı?! Yaxud Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının qeyd-şərtsiz boşaldılması ilə bağlı 4 qətnamə qəbul etmiş BMT-nin bu sayaq regional münaqişələrin beynəlxalq hüquq normaları və ölkələrin ərazi bütövlüyü çərçivəsində həlli üçün hərəkətə keçməsi vaxtı deyilmi?! COVID-19 həqiqəti yaxın gələcəkdə hamının hüzur içində yaşaya biləcəyi bir dünyanın qurulmasından, davamlı inkişafın, insanların rifahının təmin olunmasından, ölkələrə, cəmiyyətlərə qarşı təhdidlərin aradan qaldırılmasından ötrü bu cür məsələlərin də yoluna qoyulmasının vacibliyini göstərir.

Bu baxımdan Azərbaycan Prezidenti beynəlxalq ictimaiyyət üçün həm hamını eyni dərəcədə təhdid edən ümumi bəlalara qarşı səyləri birləşdirmək, həm də “VUKA dünya”nın reallıqlarını nəzərə alıb, gələcəklə bağlı bir çox məsələləri götür-qoy etməkdən ötrü böyük bir fürsət yaratdı.

Və qısa zamanda bu təşəbbüsün belə böyük dəstək qazanması da onun vaxtında irəli sürüldüyünü, aktuallığını göstərdi.

❖ ❖ ❖

Bu sətirləri yaza-yaza düşünürəm ki, müasir dünyamızın reallıqlarını ən xırda detallarına qədər nəzərə alan belə bir qlobal təşəbbüs elə ancaq cənab İlham Əliyevdən gələ bilərdi.

Bu, məhz Onun missiyasıdır. Tarix bu missiyanı sanki onun boyuna biçib.

Cənab İlham Əliyev hələ Azərbaycan Respublikasının Prezidenti olmamışdan əvvəl də qlobal miqyaslı mühüm simalardan birinə çevrilmişdi.

Xalqımızın Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin SSRİ boyda nəhəng imperiyanın rəhbərliyinə seçilməsindən sonra cənab İlham Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin deputatı statusunda Avropa Şurası Parlament Assambleyasının sədr müavini seçilməsi dövlətçilik tariximizin ikinci mühüm hadisəsi idi.

İlham Əliyev Azərbaycan Prezidenti olaraq ölkəmizin BMT Təhlükəsizlik Şurasının üzvlüyünə seçilməsinə nail olmaqla bu tarixi estafeti davam etdirdi və müəyyən bir dövr ərzində BMT Təhlükəsizlik Şurasına sədrlik edərək qlobal miqyaslı Lider mövqeyini daha da möhkəmləndirdi.

Və COVID-19 böhranının bütün dünyanı sardığı, ölkə rəhbərlərinin çaşqınlıq içində qaldığı gərgin günlərdə öz təmkini, müdrik yanaşmaları, effektiv addımları, yaratdığı nümunələrlə göstərdi ki, dünya tarixini yalnız İlham Əliyev kimi liderlər irəli apara, davamlı inkişaf xəttini də, insanların təhlükəsizliyini də yalnız belə qətiyyətli dövlət adamları qoruya bilər.

Əksər ölkələrdə pandemiya səbəbindən çaxnaşmanın yarandığı, idarəçilərin də, səhiyyə sistemlərinin də başını itirdiyi, iqtisadiyyatın iflas həddinə gəldiyi, insanların ayağa qalxıb hiddətlə hökumətlərin üzərinə yeridiyi, hətta qlobal təhlükəsizliyin təhdid altına düşdüyü günlərdə belə Azərbaycan öz müvazinətini saxlayır. Səhiyyə infrastrukturumuz yaradılan yeni xəstəxanalar hesabına sürətlə genişləndirilir. Sistem, tibbi təchizat ehtiyaclara uyğunlaşdırılır, dövlət öz vətəndaşlarının yanındadır və Azərbaycanda pandemiyadan insan itkilərinin müqayisədə şükürlər ki, minimal səviyyədə olması məhz bunun sayəsindədir.

İqtisadiyyatımızda müəyyən geriləmələr olsa da, məqsədyönlü qərarlar hesabına bu, başqa ölkələrdəki həddə deyil. Cənab İlham Əliyev insanların sağlamlığı ilə yanaşı, gündəlik ruzisini də qoruyur. Dövlətin vətəndaşlara sosial qayğısını davam etdirir. Sahibkarların iş-gücünə dəstək olur.

Əhali ilə sıx kommunikasiyaları davam etdirərək indi ən çox ehtiyac duyduğumuz dəyəri - cəmiyyətimizdə milli vəhdəti, doğmalığı daha da gücləndirir. Apardığı köklü islahatlarla, naqis əməl sahiblərinə qarşı qətiyyətli addımları ilə yüksək inam yaradır. İnsanlara özlərini təhlükədən qorumaq üçün verdiyi tövsiyələrlə, qapalı yerlərdə şəxsən özü maska taxaraq yaratdığı şəxsi nümunələrlə cəmiyyəti maarifləndirir.

Və qlobal böhran dövründə öz baxışlarını, faydalı təşəbbüslərini, Azərbaycanın problemin həlli sahəsində effektiv təcrübəsini dünya ilə də bölüşür.

Bu, artıq qlobal miqyasa yüksəlmiş, o səviyyədə düşünən, məsələlərə zamanın ənginliklərindən baxa bilən bir Liderin, dövlət adamının məqamıdır.

❖ ❖ ❖

Azərbaycanı dünyanın əsas ölkələrindən, cənab İlham Əliyevi isə qlobal aləmin aparıcı liderlərindən birinə çevirən prosesə ölkəmizin Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın da töhfələri böyükdür. Ümumən, Azərbaycan Prezidentinin elə bir tarixi nailiyyəti yoxdur ki, orada Mehriban xanımın mənəvi dəstəyi, dəyərli töhfələri nəzərə çarpmasın.

O, Qərb aləminin əsas düşüncə mərkəzlərindən olan UNESKO-nun və Şərq dünyası üçün eyni missiyanı yerinə yetirən ISESCO-nun xoşməramlı səfiri kimi çox mühüm statuslar daşıyır. Bu statusların ali nüfuzu öz yerində, Mehriban xanım eyni vaxtda hər iki qurumun xoşməramlı səfiri missiyasını yerinə yetirən nadir şəxsiyyətlərdəndir.

İgid ifadəsini adətən zərif cinsin nümayəndələrinə az aid edirlər, amma Azərbaycan qadınının ən gözəl xüsusiyyətlərini təcəssüm etdirən Mehriban xanıma bu ifadə çox yaraşır. Onun öz mərhəməti, xeyirxahlığı, şəfqəti, insanlara sevgisi, milli və ümumbəşəri dəyərlərə bağlılığı, bütün dünyada sülhü, tolerantlığı, multikulturalizmi təbliğ etməsi və nəcib əməyinin qiyməti kimi bu yüksək statusları qazanması əsl igidlikdir.

Mehriban xanım Azərbaycan xalqının, bu xalqın qurduğu dövlətin nəcib nişanələrini mədəniyyətin gücü ilə dünyanın Vatikan sarayı, Luvr muzeyi və başqa belə mədəniyyət məbədlərinə yazmış adamdır.

Bu gün Vatikandakı Müqəddəs Marçellinio və Pietro katakombalarını ziyarət edən adam orada bu dini abidələri bərpa edən şəxsin katolik, yaxud xristianlığın digər təriqətinə aid biri yox, müsəlman azərbaycanlısı, Azərbaycan insanı olduğunu görür. Dərhal Azərbaycanla maraqlanmağa başlayır, ölkəmiz, xalqımız haqqında faydalı bilgilər toplayır, öz evinə, icmasına, ətrafına bu xalq haqqında sağlam, xeyirli fikirlər aparır.

Budur Azərbaycanın keçmişinə, bu gününə, gələcəyinə verilən töhfə, budur qlobal miqyasda düşünmək, budur Azərbaycan qadınının öz el-obasının da, bu el-oba üçün çalışan əreninin də adını uca tutması, ucalara yüksəltməsi.

Budur Azərbaycanın inkişafı, tarixin ən qüdrətli Azərbaycanının gəlib çatdığı yer...

O Azərbaycan ki, bu gün cənab İlham Əliyevin sayəsində həm də adını tarixə dünyanın ən çətin situasiyalarına ən hazırlıqlı ölkələrindən biri kimi yazır.

❖ ❖ ❖

**Qeydlərimin əvvəlində dünya tarixinin pandemiyaya qədər və postpandemiya olmaqla iki dövrə bölünəcəyini yazmışdım.**

**Fikrimcə, bu bölgü öz əməlləri ilə tarix yaradan liderlərə də aid olacaq və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin liderlik salnaməsində pandemiyaya qədərki və postpandemiya dövrləri ayrı-ayrı mərhələlər təşkil edəcək.**

**Əgər COVID-19-a qədər Azərbaycan Prezidenti regionun lider dövlətinin rəhbəri, Avrasiya məkanının əsas söz sahiblərindən biri idisə, pandemiya dövrünün reallıqları cənab İlham Əliyevi artıq qlobal miqyaslı liderlərdən biri səviyyəsinə yüksəldir.**

***Hüseynbala MİRƏLƏMOV,***
***Yeni Azərbaycan Partiyası Xətai Rayon Təşkilatının sədri***

# İnsanların sağlamlığı bütün vəzifələrin fövqündə dayanır

## İlham ƏLİYEV: "Bütün qabaqlayıcı tədbirlərin görülməsi ilə vəziyyəti nəzarətdə saxlaya bildik"

*Əvvəli 1-ci səh.*

COVID-19 virusuna yoluxmuş şəxslərin müalicəsi ilə bağlı xəstəxanalar müəyyən edildi. Hazırda respublikamızın 45 xəstəxanasında koronavirus xəstələri müalicə alırlar. Həmçinin bölgələri də əhatə etməklə ölkədə 2000 çarpayılıq 10 modul tipli xəstəxananın quraşdırılmasına başlanılıb, onlardan 5-i artıq istifadəyə verilib, ən müasir standartlara cavab verən laboratoriyalar alınıb. Fevral ayında Azərbaycanda cəmi 6 laboratoriya mövcud olduğu halda, qısa müddətdə onların sayı 29-a çatdırılıb. Tibb müəssisələrinin texniki təminatı, xüsisi avadanlıqların, dərman preparatlarının, testlərin alınması və ölkəyə gətirilməsi təmin edilib. Ən mühüm addımlardan biri də o oldu ki, ölkəmizdə qoruyucu və dezinfeksiya vasitələrinin istehsalı təşkil edildi və qısa müddətdə bu sahədə olan çatışmazlıqlar aradan qaldırıldı.

Məhz bu tədbirlərin nəticəsidir ki, dünyanın bir sıra bölgələrində, xüsusən inkişaf etmiş Avropa ölkələrində yaranmış kəskin vəziyyət Azərbaycanda müşahidə olunmadı. İyulun 6-da Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışından və bu tibb ocağında yaradılan şəraitlə tanışlıqdan sonra müsahibə verən Prezident İlham Əliyev ölkəmizdə bu istiqamətdə görülən işlər barədə danışaraq bildirib ki, qabaqlayıcı tədbirlərin görülməsi ilə vəziyyət nəzarətdə saxlanılır: *"Bəri başdan bütün qabaqlayıcı tədbirlərin görülməsi ilə vəziyyəti nəzarətdə saxlaya bildik və bu gün də vəziyyət nəzarət altındadır. Baxmayaraq ki, hazırda gündə təqribən 500 yeni xəstə qeydə alınır, yəni, yoluxmanın tempi yüksəkdir, ancaq vəziyyət nəzarət altındadır".*

### Virusla mübarizə həm də vətəndaşların vəzifəsidir

Bu gün də respublikamız ciddi fəsadların müşahidə edildiyi ölkələr sırasında deyil. İstər yoluxma, istərsə də vəfat edənlərin sayına görə Azərbaycanda qeydə alınan hallar digər ölkələrlə müqayisədə təhlükəli hesab olunmur. Təsadüfi deyil ki, ölkəmizin koronavirusla mübarizə sahəsindəki təcrübəsi dünyada yüksək qiymətləndirilib. Bu mənada, Ümumdünya Səhiyyə Təşklatının (ÜST) və digər beynəlxalq təşkilatların Azərbaycan hökumətinin həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə pandemiya ilə mübarizəyə böyük töhfələr verdiyini qeyd etmələri və bununla əlaqədar olaraq şəxsən Prezident İlham Əliyevə öz təşəkkürlərini bildirmələri həqiqətən də mühüm hadisədir. Bir sözlə, Azərbaycan hökuməti pandemiya ilə mübarizə üçün kifayət qədər geniş tədbirlər planı həyata keçirib. Həkimlərimiz və polislərimiz insanların həyatını xilas etmək, karantin rejiminə əməl olunmasını təmin etmək üçün maksimum səy göstərməkdədirlər.

Hazırkı dövrdə koronavirusla mübarizədə müsbət nəticənin əldə olunması təkcə hökumətin, Operativ Qərargahın fəaliyyətindən asılı deyil. Dövlət qurumları bununla bağlı nə qədər birbaşa məsuliyyət daşısalar da, bu qorxunc virusla mübarizə həm də hər bir vətəndaşın bilavasitə vəzifəsidir. Bu barədə ekspertlər, tibb işçiləri kifayət qədər fikirlərini bildiriblər. Cənab Prezident də çıxışlarında daim karantin rejiminin tələblərinə əməl olunmasının vacibliyini önə çəkib. Çünki xəstəliyin yayılmasının qarşısının alınmasının birinci yolu karantin və izolyasiya rejiminin tələblərinə riayət etməkdir. Hər bir vətəndaş ilk növbədə özünü qorusa, yoluxma da olmaz və beləliklə, koronavirus təhlükəsi bir o qədər tez aradan qaldırılar.

Lakin təəssüflə qeyd etməliyik ki, hələ də karantin rejimi qaydalarının pozulması ilə bağlı xoşagəlməz hadisələr baş verməkdədir. Xəstəliyin ciddiliyinə inanmayanlara, qəbul olunmuş qərarlara etinasız yanaşanlara rast gəlinir. Qoruyucu maskalardan istifadə edilməməsinə, koronavirusa yoluxmuş qohumların və qonşuların ziyarətinə, dəfn mərasimlərinin, müxtəlif məclislərin, kütləvi istirahət tədbirlərinin təşkilinə dair faktların şahidi oluruq. Müsahibəsində bu məsələyə münasibət bildirən Prezident İlham Əliyev deyib: "İlk gündən bugünə qədər burada dövlət tərəfindən bütün lazımi addımlar atılıbdır. Xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir. Onlar sadə qaydaları gözləmirlər, bunlara əməl etmirlər. Ona görə biz məcbur olub cərimələri artırdıq. Bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmağa məcbur oluruq. Ancaq onlar da öz məsuliyyətini dərk etməlidirlər. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Amma biz görürük ki, insanlar bu rejimi nümayişkaranə pozurlar. Dünən məşhur bir hoteldə baş verən o biabırçı hadisə dözülməzdir. Ona görə, əlbəttə, Azərbaycan polisi düz edərək müdaxilə edib".



### Cəmiyyət məhdudiyyət tədbirlərini anlayışla qarşılayır

Bəli, əgər tələblərə düzgün riayət olunsaydı, sərt karantin rejiminin uzadılmasına da gərək qalmazdı. Əslində bütün ölkələr karantin rejiminin ilk yumşalma mərhələsindən sonra yenidən yoluxma saylarının artımı ilə üzləşiblər. Ciddi səylərə baxmayaraq, pandemiyanın qarşısını almaq və ya onu əsaslı şəkildə lokallaşdırmaq mümkün olmayıb. Ona görə karantin rejimi dünyanın hər yerində ya uzadılır, ya da yumşalmadan sonra yenidən tətbiq olunur. Azərbaycanla qonşu dövlətlərdə də vəziyyət belədir. Sərhədlərin açılmasından isə söhbət belə gedə bilməz.

Xoşagəlməz halların baş verməsinə baxmayaraq, bütövlükdə Azərbaycan cəmiyyəti koronavirusun yayılmasının qarşısını almaq üçün həyata keçirilən məhdudiyyət tədbirlərini anlayışla qarşılayır. Düzdür, məhdudiyyətlər iqtisadi fəallığı azaldır. Təbii ki, dövlətlər və insanlar bundan ciddi ziyan çəkir. Çünki gəlirlər azalır. Elə buna görə də Azərbaycan dövləti işsiz vətəndaşlara sosial müavinətlər verir, eyni zamanda sahibkarlıq subyektlərinə yardımlar edilir. Bununla belə bu gün əhalinin sağlamlığı və onun təhlükəsizliyinin təmin edilməsi bütün vəzifələrin fövqündə dayanır. Azərbaycan dövləti üçün heç bir səbəb əhalinin sağlamlığından öndə ola bilməz. "Seçim qarşısında olanda bizim seçimimiz birmənalı, tərəddüdsüz idi, insanların sağlamlığı ön plandadır, iqtisadiyyat ikinci plandadır" - deyə Prezident İlham Əliyev müsahibəsində bildirib.

Hər birimizin ətrafında koronavirusa yoluxmuş şəxslər, ailələr var. Biz onların necə böyük problemlə üzləşdiklərini görürük. Bu vəziyyət hamının məsuliyyətli davranış nümayiş etdirməsi, birliyini, həmrəyliyini daha da gücləndirmək üçün siqnal olmalıdır.

Azərbaycan cəmiyyəti koronavirusun yayılmasının qarşısını almaq üçün həyata keçirilən məhdudiyyət tədbirlərini anlayışla qarşılayır. Əlbəttə, ölkəmizdə aparılan kompleks tədbirlər öz səmərəli nəticəsini verəcək və pandemiya ilə mübarizədə müsbətə doğru nəticələr əldə ediləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan dövləti bütün imkanlarını pandemiya ilə mübarizəyə yönəldib

## Prezident İlham ƏLİYEV: "Bu xəstəxanaların tez bir zamanda inşa edilməsi onu göstərir ki, biz hətta seytnot vəziyyətdə lazımi addımları ata bilərik"

*Əvvəli 1-ci səh.*

Təəssüf ki, indiyə qədər görülən bütün tədbirlər koronavirusun qarşısında aciz qalıb. Tibbi çarə, peyvənd tapılmadığı üçün, hər nə edilsə də, COVID-19 yoxa çıxmaq bilmir. Adi bir sərvaxtlıqdan böyük fəlakətlər törənir. Yoluxdurduğu, aldığı canların statistikası isə insanlığın hələ bugünə qədər belə bir faciə ilə qarşılaşmadığını göz önünə gətirir. Ən dəhşətlisi isə dünyada baş verən bu tragediyanın nə zamana qədər sürəcəyinin bilinməməsidir. Hazırda biz, XXI əsrin müasir insanları bu qeyri-müəyyən vəziyyətin içində, sözün əsl mənasında, ölüm-dirim savaşının ortasındayıq.

İnsanlığın məhv olmaması və soyunun davam etdirilməsi isə məhz yenə də elə insanın öz əlindədir. Bu, min illərdir sübut olunmuş bir faktdır ki, heç bir dərd çarəsiz deyil. İndiki halda, yəni virusa qarşı dərman müalicəsinin, yaxud vaksinin tapılmasına qədər koronavirusa yoluxmaqdan qorunmaq lazımdır. Bu da o qədər çətin deyil: sosial məsafə saxlayaraq, maska taxaraq, əllərimizi yuyaraq.

### Qlobal pandemiya ilə mübarizə davam edir

Ölkəmizdə qlobal pandemiya ilə mübarizə davam edir. Koronavirusun yayıldığı ilk zamandan etibarən hökumətin intensiv və düzgün fəaliyyəti sayəsində qısa zamanda səhiyyə infrastrukturu koronavirusla mübarizəyə istiqamətləndirildi, aidiyyəti dövlət qurumlarının fəaliyyəti bacarıqla əlaqələndirildi və bir çox mühüm məsələlər həll edildi.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq pandemiyanın qarşısının alınması üçün qətiyyətli və çevik addımlar atıldı. Dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, ümumi strategiyanın həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında Operativ Qərargah yaradıldı, onun fəaliyyəti təşkil olundu.

Operativ Qərargahın işinin düzgün təşkili isə koronavirusla mübarizə strategiyasının effektiv şəkildə icrasını, qarşıya qoyulan vəzifələrin çevik şəkildə həllini təmin etməyə imkan verir.

### Modul tipli xəstəxanaların qurulması koronavirusla mübarizəyə töhfə oldu

COVID-19 virusuna yoluxmuş şəxslərin müalicəsi ilə bağlı xəstəxanalar müəyyən edildi, eyni zamanda ən müasir standartlara cavab verən "Yeni klinika" koronavirus xəstələrinin ixtiyarına verildi. Hazırda həmin klinikada 350 xəstə müalicə alır. Qısa müddət ərzində orada çarpayıların sayının 700-750-yə çatdırılması nəzərdə tutulur.

Xüsusilə modul tipli xəstəxanaların qurulması koronavirusla mübarizəyə inanılmaz töhfə verdi. Qısa zaman kəsimində inşa edilən bu xəstəxanalar ölkəmizdə koronavirusa yoluxan xəstələrin hər birinin xəstəxana şəraitində müalicəsini təmin etdi.

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanıldı ki, onlardan da bir neçəsinin artıq açılışı olub. Ümumilikdə yaradılacaq modul tipli xəstəxana kompleksləri ölkənin səhiyyə sisteminə əlavə 2000 çarpayılıq ehtiyat yeri yaradır.

Belə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmədə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.

### "O vaxt bu qərarın qəbul edilməsi düzgün addım idi"

İyulun 6-da ölkə rəhbəri İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva koronaviruslu xəstələrin müalicəsi üçün Bakının Xətai rayonunda inşa edilən daha bir modul tipli hospitalın açılışında iştirak etdilər.

Sözügedən hospital 10 korpusdan ibarətdir və burada 800 xəstəni qəbul və müalicə etmək üçün hər cür imkan var. Modul tipli hospitalda yaradılan şərait müalicə işi ilə yanaşı, laborator müayinələri də qısa müddətə və keyfiyyətlə aparmağa imkan verir.

Bazar ertəsi açılışı olan tibb ocağında yaradılan şəraitlə tanışlıqdan sonra dövlət başçısı ölkə telekanallarına verdiyi müsahibə zamanı bildirdi ki, bu ərazidə təqribən bir ay-ay yarım ərzində 1300-ə qədər çarpayısı olan yeni modul tipli xəstəxana inşa ediləcək.

"Bu xəstəxanaların tez bir zamanda inşa edilməsi göstərir ki, biz hətta seytnot vəziyyətdə lazımi addımları ata bilərik", - deyə vurğulayan Prezident qeyd etdi ki, əslində, modul tipli bu 10 xəstəxananın tikintisi ilə bağlı qərarı biz o vaxt vermişdik ki, xəstəliyin yayılması o qədər də geniş vüsət almamışdı: "Həmin qərar aprel ayında verilmişdi, o vaxt gündə təqribən 30, 40, 50, 60 insan xəstələnirdi. Əlbəttə, qabaqlayıcı tədbirlərin görülməsi zəruri idi. Ancaq biz təxmin edə bilməzdik ki, xəstəlik necə inkişaf edəcək. Lakin ehtimal var idi və dünyada gedən proseslər onu göstərirdi ki, xəstələrin sayı arta bilər. Belə olan halda biz çıxılmaz vəziyyətdə qalar, bu xəstələri harada yerləşdirərdik? Ona görə o vaxt bu qərarın qəbul edilməsi düzgün addım idi".

Qeyd edək ki, hazırda ölkəmizin 45 xəstəxanasında koronavirus xəstələri müalicə alırlar. Onlardan 36-sı isə Prezidentin sərəncamı ilə son müddət ərzində inşa edilənlərdir.

Ölkə rəhbəri yerli KİV-ə müsahibəsində bildirdi ki, bu gün bizim hələ kifayət qədər boş çarpayılarımız var: "Təsəvvür etmək çətin deyil ki, əgər bu xəstəxanalar tikilməsəydi, indi biz hansı problemlərlə üzləşə bilərdik. Beləliklə, bu gün bizim hələ ki kifayət qədər boş çarpayılarımız var. Ancaq biz hər bir vəziyyətə hazır olmalıyıq".

### Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünyada təqribən 40-cı yerdədir

Dünyanın bir çox ölkələrindən fərqli olaraq, Azərbaycanda pandemiyaya qarşı zamanında atılan çevik və qabaqlayıcı tədbirlər epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verdi. Hazırda da bununla bağlı bütün mümkün tədbirlər həyata keçirilir. Mütəxəssislərin bildirdiyi kimi, koronaviruslu xəstələrin erkən aşkarlanması virusun yayılmasının qarşısının alınmasında ən təsirli vasitələrdən biridir. Buna görə də ölkəmizdə ilkin zamanlardan etibarən gündəlik olaraq virusun aşkarlanması üçün çoxsaylı testlər aparılır. Və bu göstəriciyə görə Azərbaycan dünya ölkələri arasında ilkin sıralardadır.

İlham Əliyev bu məsələyə də toxunaraq vurğuladı ki, baxmayaraq ki, hazırda gündə təqribən 500 yeni xəstə qeydə alınır, yəni, yoluxmanın tempi yüksəkdir, ancaq vəziyyət nəzarət altındadır: "Əlbəttə, biz pandemiyanın ilk günlərindən çox önəmli addımlar atdıq. Fevral ayında bizim cəmi altı laboratoriyamız var idi. Hazırda bu laboratoriyaların sayı 29-a çatıb və 15 yeni laboratoriya sifariş edilib, yoldadır, gələcək və laboratoriyaların sayı 44-ə çatacaqdır. Bu, bizə imkan verəcək ki, daha çox test aparaq. Onu da bildirməliyəm ki, bugünə qədər 500 mindən çox test aparılıb və adambaşına düşən testlərin sayına görə Azərbaycan dünyada təqribən 40-cı yerdədir".

### Xalqımızın etibarlı müdafiəsi

Göründüyü kimi, ölkəmizdə COVID-19-la mübarizə yüksək səviyyədə, birbaşa Prezidentin rəhbərliyi altında aparılır. Pandemiya vəziyyəti mütəxəssislərlə dərindən təhlil edilərək, bu istiqamətdə effektiv tədbirlər görülür. Ən kritik anlara belə hazırlıqlı olmaq üçün gələcəyə yönəlik müvafiq işlər həyata keçirilir.

Azərbaycan dövləti bütün imkanlarını və səylərini qlobal pandemiyayla mübarizəyə yönəldib. Atılan bütün təsirli addımların məqsədi isə insanlarımızın, onların sağlamlığının, həyatının bu xəstəlikdən qorunması üçündür.

Əminik ki, dövlət başçımızın liderliyi altında çox keçmədən xalqımız bu fəlakətdən də etibarlı müdafiə olunaraq öz əvvəlki əmin-amanlıq çağlarına qayıdacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Ölkəmiz ən kritik vəziyyətə də hazırdır

## Ölkədə 5 mindən çox xəstəni yerləşdirməyə imkan var

COVID-19 infeksiyası yayılmağa başladığı ilk günlərdən Azərbaycanda bütün istiqamətlər üzrə qabaqlayıcı tədbirlər həyata keçirildi. Ölkə səhiyyəsi koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırıldı.

Hökumətin intensiv və düzgün fəaliyyəti sayəsində qısa zamanda səhiyyə infrastrukturu pandemiya ilə mübarizəyə istiqamətləndirildi, aidiyyəti dövlət qurumlarının fəaliyyəti bacarıqla əlaqələndirildi. Koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlara cavab verən əlavə tibbi laboratoriyalar alındı. Bütün tibb müəssisələrinin texniki təminatı, xüsusi avadanlıqların, dərman preparatlarının, testlərin, diaqnostik alətlər və tibbi ləvazimatların ölkəyə gətirilməsi təmin edildi. Qoruyucu və dezinfeksiya vasitələrinin istehsalı təşkil olundu. Qısa müddətdə 20-dən artıq xəstəxana, o cümlədən ən müasir standartlara cavab verən "Yeni klinika" koronavirus xəstələrinin ixtiyarına verildi. Dövlət başçısı İlham Əliyevin tapşırığına əsasən bölgələri də əhatə etməklə ölkədə 10 modul tipli xəstəxananın quraşdırılmasına başlandı. Onlardan beşi - ikisi Bakıda, biri Sumqayıtda, biri Gəncədə, biri Abşeron rayonunda artıq fəaliyyətdədir.

### Əlavə 10 modul tipli xəstəxananın da tikintisi nəzərdə tutulur

İyulun 6-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışı oldu. 10 korpusdan ibarət hospitalda 800 xəstəni qəbul etmək üçün hər cür imkan var.

Azərbaycan dövlətinin koronavirus pandemiyasının yayıldığı ilk günlərdən onunla mübarizə istiqamətində atdığı çox mühüm addımlar sırasında modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət daşıyır. Ölkədə COVID xəstələrinin sayının artmasını nəzərə alsaq, əlavə çarpayılara ehtiyac yaranır. Modul tipli xəstəxana kompleksləri ölkənin səhiyyə sisteminə əlavə 2000 çarpayılıq ehtiyat yaradır. Bir ay-ay yarım ərzində istifadəyə veriləcək daha bir modul tipli xəstəxana 1300 yerlik olacaq.

Bundan başqa, əlavə 10 modul tipli xəstəxananın da tikintisi nəzərdə tutulur. Bunu Azərbaycan Prezidenti İlham Əliyev televiziya kanallarına müsahibəsində ölkədə hazırkı vəziyyət, koronavirusla mübarizə sahəsində görülən işlər barədə danışarkən bildirib. Dövlət başçısı deyib ki, əlavə xəstəxanalara ehtiyac olacağı üçün bu yaxınlarda əlavə 10 modul tipli xəstəxananın tikintisi üçün yerlərin müəyyən edilməsi barədə göstəriş verib. Çünki Azərbaycan ən kritik vəziyyətə də hazır olmalıdır.

Hazırda ölkəmizin 45 xəstəxanasında koronavirus xəstələri müalicə alırlar. O xəstəxanalardan 36-sı son müddət ərzində inşa edilib. Martda istifadəyə verilmiş "Yeni klinika"da 350 xəstə müalicə alır. Qısa müddət ərzində orada çarpayıların sayının 700-750-yə çatdırılması nəzərdə tutulur. Beləliklə, ehtiyac yaranacağı təqdirdə 5 mindən çox xəstənin yerləşdirilməsi üçün potensial mövcuddur.

### Vəziyyət nəzarət altındadır

Dünyada, o cümlədən Azərbaycanda koronavirus pandemiyası ilə bağlı vəziyyəti qiymətləndirərkən dövlət başçısı bildirib ki, bəzi ölkələr yumşalma tədbirlərindən sonra xəstəliyin yayılma tempinin artdığını gördükdə yenidən məhdudlaşdırıcı tədbirlərə qayıdırlar. Bu da hazırda ən düzgün qərardır. Çünki bu xəstəliyin tam müalicəsi üçün peyvənd mövcud deyil. Belə olan halda yoluxanların sayı bundan sonra da arta bilər. Ölkəmizdə də bir aya yaxındır yoluxmanın tempi yüksəkdir, gündəlik 500-dən çox yeni xəstə qeydə alınır. Ancaq vəziyyət nəzarət altındadır. Çünki pandemiyanın ilk günlərindən ölkədə koronavirusla mübarizə sahəsində çox önəmli addımlar atıldı. Vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində vəziyyət nəzarətdə saxlanıldı. Məhdudlaşdırıcı tədbirlərin görülməsi ilə bağlı addımlar da vəziyyətə uyğun şəkildə atılır. Qərarlar qəbul olunarkən mövcud vəziyyət dərindən təhlil olunur, mütəxəssislərlə məsləhətləşmələr aparılır. Karantin rejiminin qüvvədə qalması isə hazırkı şəraitdə ən düzgün addımdır. Əsas məqsəd insanları, onların sağlamlığını, həyatını bu xəstəlikdən qorumaqdır. Pandemiya dövründə dövlətin bütün imkanları bu vəziyyətdən az itkilərlə çıxa bilmək üçün səfərbər olunub.

"Biz pandemiya dövründə adətən karantin rejimini bir, ya iki həftə ərzində elan edirdik. Vəziyyəti təhlil edərkən, nəzarət mexanizmlərini gücləndirərkən baxırdıq ki, bu sərtləşdirilmiş tədbirlər nəyə gətirib çıxarır. Deyə bilərəm ki, bir müddət bundan əvvəl yoluxanların sürətlə artan sayı indi sabitləşib. Son bir neçə gün ərzində, dediyim kimi, artıq 500 ətrafında yeni yoluxan insan var. Ancaq biz hələ müsbət dinamikaya çıxmamışıq. Bugünə qədər xəstələnənlərin sayı sağalanların sayından çoxdur və bu mənfi dinamika, qeyd etdiyim kimi, bizim səhiyyə sistemimizə də əlavə yükdür. Ona görə indiki rejim nə qədər davam edəcək və bu rejim daha da sərtləşəcək, yoxsa yumşalacaq, yaxın gələcəkdə biz bunu görəcəyik, - deyə Prezident əlavə edib.

### Mövcud qanunlar və karantin qaydaları hər kəs üçün əsas olmalıdır

Pandemiyanın ilk günlərindən hazırkı dövrə qədər dövlət tərəfindən bütün lazımi addımlar atılıb. COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar görülən bütün işlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədini daşıyıb. Bu gün Azərbaycan dövləti üçün ən prioritet məsələ vətəndaşların koronavirus infeksiyasından qorunmasıdır. Ölkəmiz qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirir. Lakin bəzi vətəndaşlar özünütəcridin xəstəliyin qarşısının alınması üçün ən vacib amil olduğuna önəm vermir, karantin rejimini, qaydaları pozur. Xəstəliyin yayılmasının başlıca səbəbi də məhz belə insanların məsuliyyətsizliyidir. Elə ona görə bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmaq məcburiyyəti yaranır. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Qaydaları pozan insanlar daha məsuliyyətli davranıb nizam-intizama riayət etsələr, pandemiyanı nəzarətdə saxlamaq mümkün olacaq. İndiki məqamda bu zillətdən ən yaxşı qorunma yolu karantin və izolyasiyadır. Vətəndaşlar özlərini, yaxınlarını düşünərək maksimal dərəcədə anlayışlı olmalı, qoyulan tələblərə, verilən tövsiyələrə etinasız yanaşmamalı, bəsit gigiyenik qaydalara riayət etməli, maska taxmalı, sosial məsafəni saxlamalı, ehtiyac olmadıqda evdən çıxmamalıdır. Yalnız bu zaman yoluxma zəncirini qırmağa kömək edə, virusa birgə qalib gələ bilərik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***




# Azərbaycanda koronavirusa daha 537 nəfər yoluxub, 453 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 537 yoluxma faktı qeydə alınıb, 453 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 21 min 374 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 12 min 635 nəfər müalicə olunaraq sağalıb, 265 nəfər vəfat edib. Aktiv xəstə sayı 8474 nəfərdir.

Ötən müddət ərzində 529 min 875 test aparılıb. Bugünkü test sayı isə 7102-dir.



# Avrasiyanın ən effektiv logistik məkanı

## Prezident İlham Əliyevin qlobal təşəbbüsləri ilə Azərbaycan pandemiya dövründə də maneəsiz tranzit daşımalarını təmin edir

*Əvvəli 1-ci səh.*

Asiyanı Avropa ilə bağlayan nəhəng nəqliyyat, logistik transmilli layihələrin reallaşmasında, onlarca ölkəni birləşdirən "Şərq-Qərb", "Şimal-Cənub" və "Şimal-Qərb" nəqliyyat dəhlizlərinin yaradılmasında böyük rol oynayan Azərbaycan artıq Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib və pandemiya dövründə də öz roluna məsuliyyətlə yanaşaraq, ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin edir. Yəni Azərbaycan etibarlı logistik imkanlarından qlobal pandemiya dövründə də yararlanmaqdadır.

İyulun 2-də Əfqanıstan Prezidentinin təşəbbüsü ilə Prezident İlham Əliyev, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun videokonfrans vasitəsilə keçirilən görüşündə də bu məsələ müzakirə mövzusu olmuşdu.

Qlobal böhran şəraitində həyata keçirdiyi layihələr, qəbul etdiyi mühüm qərarların uğurlu nəticələri ilə bağlı həmkarlarını məlumatlandıran cənab İlham Əliyev diqqətə çatdırdı ki, pandemiyanın mənfi təsirlərinə baxmayaraq, Azərbaycan tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görüb. "Şərq-Qərb nəqliyyat dəhlizi" ilə beynəlxalq yük daşımaları fasiləsiz olaraq həyata keçirilir.

Xatırladaq ki, hələ aprel ayının 10-da Prezident İlham Əliyevin təşəbbüsü ilə videokonfrans formatında keçirilən Türk Şurasının fövqəladə Zirvə görüşündə də, görüşün yekun bəyannaməsində də pandemiya dövründə ölkələr arasında daşımaların davamlılığının təmin edilməsi üçün müvafiq addımların atılmasının vacibliyi qeyd olunmuşdu. Eyni zamanda yük nəqliyyat vasitələrinin sərhədlərdən keçmə prosedurlarının sadələşdirilməsi və bu sahədə yaranan problemlər barədə məlumat mübadiləsinin aparılması zəruri hesab edilmişdi.

May ayının 4-də Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilatın Təmas Qrupu formatında keçirilən Zirvə görüşündə də dövlət başçısı pandemiya şəraitində ölkələr arasında ticarətin açıq saxlanılmasının və beynəlxalq yükdaşımaların fasiləsiz həyata keçirilməsinin vacibliyini bildirmişdi. Azərbaycanın artıq Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrildiyini, bir çox ölkəni birləşdirən layihələrin reallaşmasında böyük rol oynadığını deyən Prezident məhz bu çətin dönəmdə də ölkəmizin etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, ərazisi vasitəsilə daşımaları maneəsiz təmin etdiyini vurğulamışdı.

Hazırda pandemiya dövründə trans-Xəzər dəhlizi boyunca zəruri malların - ərzaq məhsulları, dərman və tibbi ləvazimatların maneəsiz daşınmasının və təchizat zəncirinin daim fəaliyyəti təmin edilir. Azərbaycan üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir.

### Dünyada 11-ci yer

Əfqanıstan və Türkmənistan prezidentləri ilə keçirilən videokonfransda cənab İlham Əliyev Azərbaycanda nəqliyyat sektoruna qoyulmuş böyük investisiyalar sayəsində müasir nəqliyyat və logistika infrastrukturunun yaradıldığını da diqqətə çatdırdı.

Bu infrastrukturlar - 2018-ci ildə istifadəyə verilən 15 milyon ton yük və 100 min konteyner yükaşırma qabiliyyətinə malik Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, gəmiqayırma zavodu, ölkədaxili müasir dəmir və avtomobil yollarıdır.

Azərbaycan Xəzər dənizində 260 gəmidən ibarət ən böyük donanmaya malikdir. Müasir gəmiqayırma zavodunda 2013-cü ildən bu günə qədər 10 gəmi tikilib, 140 gəminin və platformaların təmiri həyata keçirilib. Hazırda zavodda 2 ropaks bərə gəmisi və 3 neft tankeri inşa edilməkdədir. 2021-ci ildə əlavə gəmilərin tikilməsi nəzərdə tutulub. Bu gəmilər Xəzər dənizi vasitəsilə yükdaşımaların artırılmasına xidmət edəcək.

Azərbaycan eyni zamanda avtomobil yollarının inkişafına böyük əhəmiyyət verir. Son 16 ildə ölkədə 16 min kilometr avtomobil yolu çəkilib. Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında yolların keyfiyyətinə görə Azərbaycan dünyada 27-ci yerdədir. Azərbaycanda 6 beynəlxalq hava limanı tikilib. Hava nəqliyyatının səmərəliliyinə görə ölkəmiz dünyada 12-cidir.

"Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu qitələri birləşdirir. Prezidentin söylədiyi kimi, Azərbaycan Asiya və Avropa arasında yerləşən ölkə kimi Avrasiya məkanında nəqliyyat-logistika sahəsinə böyük töhfələr verir. Bu ilin ilk altı ayında bu dəmir yolu ilə daşınmış yüklərin həcmi 2019-cu ilin eyni dövrü ilə müqayisədə 3,7 dəfə çoxdur.

Davos İqtisadi Forumunun son hesabatında dəmir yollarının səmərəliliyinə görə Azərbaycan dünyada 11-ci yerdədir. Bütövlükdə, Davos Forumunun hesabatında nəqliyyat infrastrukturunun səviyyəsinə görə Azərbaycan dünyada 34-cü yerdədir.

### Tranzit keçid haqlarına əlavə güzəştlər tətbiq edilib

Azərbaycan ölkənin tranzit potensialının və yük axınlarının artırılması məqsədilə hələ pandemiyadan öncəki dövrdə daşımalara və tranzit keçid haqlarına əlavə güzəştlər tətbiq edib, müvafiq tədbirlər görüb.

Bu güzəştlər Türk Şurasına üzv ölkələrin daşıyıcıları üçün nəqliyyat əməliyyatlarının sadələşdirilməsi və daşıma xərclərinin azaldılması baxımından əhəmiyyətlidir. Bu səbəbdən Avropadan Asiya istiqamətində hərəkət edən daşıyıcılar üçün Xəzər dənizi üzərindən keçən marşrutun üstünlüklərindən davamlı şəkildə istifadənin nəzərdən keçirilməsi mövcud yük axınının daha da artmasına öz töhfəsini verir.

Ümumiyyətlə, bu ilin birinci rübündə Azərbaycan ərazisindən 52 min 405, o cümlədən tranzit olaraq 20 min 819 ədəd xarici ölkələrin nəqliyyat vasitələri ikitərəfli və Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli icazələri ilə sərhəddə icazə almaqla beynəlxalq avtomobil daşımalarını yerinə yetirib. Statistik məlumatların müqayisəsi göstərir ki, I rübdə ötən ilin müvafiq dövrünə nisbətən ölkə ərazisindən beynəlxalq avtomobil daşımalarını yerinə yetirən xarici ölkələrin nəqliyyat vasitələrinin sayı 24 faiz, tranzit daşımaların sayı isə 32 faiz artıb.

### Azərbaycan etibarlı tranzit ölkə kimi dünyada özünü təsdiqləyib

Əfqanıstanlı və türkmənistanlı həmkarları ilə keçirilən videokonfransda cənab İlham Əliyev nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi istiqamətində görülən işlərdən söz açaraq vurğuladı ki, dost ölkələr "Şərq-Qərb nəqliyyat dəhlizi"nin imkanlarının daha da artırılması üçün səylərini davam etdirməlidirlər. Yükdaşımaların optimallaşdırılması üçün tariflərin unifikasiyasının həyata keçirilməsi vacibdir. Dövlət başçısı gələcək addımların müzakirəsi üçün ölkələrin nəqliyyat strukturlarının işçi görüşünün keçirilməsini də təklif etdi.

Qeyd edildi ki, "Şərq-Qərb nəqliyyat dəhlizi" artıq tam şəkildə fəaliyyət göstərir,

2019-cu ildə bu dəhlizlə 8,7 milyon ton yük daşınıb. Bu ilin ilk dörd ayı ərzində bu rəqəm artıq 3 milyon tona çatıb.

Azərbaycan eyni zamanda "Şimal-Cənub nəqliyyat dəhlizi"nin fəal iştirakçısıdır. Dəhlizin Azərbaycan seqmentində bütün işlər başa çatdırılıb. Bu dəhliz vasitəsilə keçən il 2,1 milyon ton, bu ilin ilk dörd ayı ərzində isə 800 min ton yük daşınıb. "Şərq-Qərb nəqliyyat dəhlizi" çərçivəsində Azərbaycan Əfqanıstan və Türkmənistanla əməkdaşlıqda müsbət nəticələr əldə edib.

Dövlət başçısının 2018-ci ilin noyabr ayında Türkmənistana rəsmi səfəri zamanı imzalanmış 21 sənəd arasında 9 sənəd nəqliyyat sektoruna aiddir. 2020-ci ilin birinci yarısında Ələt Beynəlxalq Dəniz Ticarət Limanında Türkmənistan və əks istiqamətdə 1,5 milyon tondan çox yük aşırılıb: "Azərbaycan etibarlı tranzit ölkəsi kimi dünya arenasında özünü təsdiqləyib. Ölkəmiz Avrasiyanın yeni önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilmişdir".

### Avropa İttifaqının "Şərq-Qərb nəqliyyat dəhlizi"nə marağı artır

Cənab İlham Əliyev eyni zamanda Avropa İttifaqının "Şərq-Qərb nəqliyyat dəhlizi"nə marağının artdığını söyləyərək, 2019-cu ilin iyul ayında Azərbaycana səfər edən Avropa İttifaqı Şurasının prezidenti cənab Donald Tuskun Ələt Beynəlxalq Dəniz Ticarət Limanına getməsini və limanın imkanları ilə yerində tanış olmasını xatırlatdı. Həmçinin bəzi ölkələrin bu layihəyə qoşulduğunu da vurğuladı: "Artıq bir neçə Avropa ölkəsi bu dəhlizə qoşulmuşdur. Digər tərəfdaş dövlətlər də dəhliz vasitəsilə yükdaşımalara böyük maraq göstərirlər".

Avropa və Asiya ölkələrinin "Şərq-Qərb nəqliyyat dəhlizi"nin iştirakçıları olduqlarını da deyən Azərbaycan Prezident məhz nəqliyyat-logistika mövzusunun Avropa İttifaqı ilə Qoşulmama Hərəkatı arasında praktiki əməkdaşlıq üçün ilk addım ola biləcəyini söylədi.

Birmənalı şəkildə deyə bilərik ki, cənab İlham Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Avropanın enerji təhlükəsizliyinin təmininə istiqamətlənən neft, qaz marşrutlarının şaxələndirilməsi, Asiyanı Avropa ilə bağlayan nəhəng nəqliyyat, logistik transmilli layihələrin reallaşması ölkəmizin beynəlxalq aləmdə layiqli yer tutduğunun göstəricisidir. Böyük coğrafiyanı əhatə edən beynəlxalq layihələrdə Azərbaycanın da imzasının olması cənab İlham Əliyevin beynəlxalq təşəbbüslərinin, ümumilikdə isə, uğurlu xarici diplomatiyasının bariz təcəssümüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin çağırışına uyğun olaraq YAP tərəfindən "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı nəşr olunub




Azərbaycan Prezidenti İlham Əliyevin tarixi faktlara, sənədlərə istinadən beynəlxalq tribunalardan səsləndirdiyi Azərbaycan həqiqətləri ermənilərin əsrlərboyu dünyaya yaydıqları tarixi yalanları hər gün bir az daha artıq ifşa etməkdədir. Bu həqiqətlər sırasında son iki əsrdə Cənubi Qafqazda yeridilən erməniləşdirmə siyasəti nəticəsində bölgəyə və bölgə xalqlarına gətirilən çoxlu bəlalar, münaqişə, müharibə, deportasiya və soyqırımları xüsusi yer tutur.

1918-ci ildə Azərbaycan torpaqları hesabına Ararat Respublikası adı ilə tarixdə ilk dövlətlərini yaratmaq fürsəti əldə edən ermənilər dərhal öz əsl simalarını ortaya qoydular və onlara bu fürsəti verən region xalqlarına, ilk növbədə, ərazinin yerli sakinləri olan azərbaycanlılara qarşı kütləvi soyqırımı həyata keçirməyə, dinc əhalini qəddarlıqla və kütləvi şəkildə məhv etməyə başladılar. Sonra tarixi mənbələr saxtalaşdırıldı, bu ərazilərdə nə varsa hamısı mənimsənildi, abidələrimiz, toponimlərimiz erməniləşdirildi.

2020-ci il iyunun 3-də Azərbaycan Prezidenti İlham Əliyev Tərtər Rayon Olimpiya İdman Kompleksinin açılışındakı çıxışında alimlərimizin diqqətini bir daha bu məsələlərə cəlb etdi: "İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin, demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm, bizim alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün", - deyərək alimlərimizə çağırış etdi.

Yeni Azərbaycan Partiyasından (YAP) AZƏRTAC-a bildiriblər ki, bu çağırışa cavab olaraq YAP-ın layihəsi kimi bu günlərdə "Elm və təhsil" nəşriyyatında tədqiqatçı alim, Milli Məclisin deputatı Əziz Ələkbərlinin "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı nəşr olunub. Kitabda Azərbaycanın tarixi torpaqları olan Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində ermənilər tərəfindən adı dəyişdirilmiş 953 toponimin - oykonim, oronim və hidronimin siyahısı verilib. Bu toponimlər Ermənistan SSR-in soydaşlarımızın sonuncu (1988-ci il) deportasiyasına qədərki ərazi inzibati bölgüsü - rayonları üzrə qruplaşdırılıb, Qafqaz Hərbi Dairəsinin 1903-cü il hərbi-topoqrafik xəritəsindən hər rayona uyğun görüntülər verilib.

Kitaba daxil edilmiş toponimlər hər bir toponimin "köhnə adı", "yeni adı" və "dəyişdirilmə tarixi" (bu dəyişdirilmə ilə bağlı Ermənistan SSR Ali Soveti Fərmanının tarixi) xanaları üzrə qruplaşdırılıb. Bu, özü də toponimlərimizin soyqırımının Ermənistanda dövlət səviyyəsində həyata keçirilməsinin əyani sübutudur.

Kitabda Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində Azərbaycan toponimlərinin ermənilər tərəfindən dəyişdirilmə prinsiplərinə də xüsusi diqqət yetirilib. Müəllif belə prinsiplərdən on birini müəyyən edib və konkret nümunələrlə fikrini əsaslandırıb. Kitab geniş oxucu kütləsi və mütəxəssislər üçün nəzərdə tutulub.

# Muxtar respublikada 50-dək müəssisə ixrac qabiliyyətinə malikdir

Muxtar respublikadakı istehsal müəssisələrinin bir çoxu artıq xarici bazarlarda özünə yer tutmağa başlayıb. Belə ki, bu gün muxtar respublikada fəaliyyət profilinə görə, 50-dək müəssisə ixrac qabiliyyətinə malikdir. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, muxtar respublikada 2020-ci ilin "İxrac" ili elan olunması istehsal olunan məhsulların ixrac imkanlarını artırıb, iqtisadi əlaqələri genişləndirib.

Naxçıvanda fəaliyyət göstərən şirkətlərə xarici bazarlara çıxışın təmin edilməsi üçün ixrac təşviqlərinin verilməsi, eyni zamanda onlara dəstək mexanizmlərinin tətbiqi dairəsi genişləndirilir. Həmçinin qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya fəaliyyət göstərir ki, ixrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar məhz buradan təmin olunur.

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda yerinə yetirilməsi nəzərdə tutulmuş ixracyönümlü və idxalı əvəz edəcək məhsul istehsalının stimullaşdırılması, yeni iş yerlərinin açılması, əhalinin maddi rifah halının yaxşılaşdırılması və istehlakçıların artan tələblərinin qarşılanması məqsədilə yaradılan müəssisələrdən biri də "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Gündəlik istehsal gücü 250-300 kq/saat olan müəssisədə vafli məmulatları, peçenye, qurabiyə, lokum və şokoladlı konfet istehsal edilir. Müəssisənin istehsal sahəsində kompüterlə idarə olunan müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesi Beynəlxalq Keyfiyyət İdarəetmə Sistemi standartlarına uyğun həyata keçirilir. Müəssisədə istehsal olunan yüksəkkeyfiyyətli məhsullar yerli tələbatı ödəməklə yanaşı, xarici bazarlara da çıxarılır. Bu məqsədlə respublikamızda və xarici ölkələrdə keçirilən biznes forumlarda müəssisə nümayəndəsinin iştirakı və beynəlxalq sərgilərdə müəssisədə istehsal olunan məhsulların nümayişi təmin edilib, nəticədə, məhsullar xarici şirkətlərin marağına səbəb olub. Həyata keçirilən kompleks tədbirlər, xarici bazarların araşdırılması və marketinq fəaliyyəti öz bəhrəsini verib, cari ilin ötən dövrü ərzində "Ləzzət Biskvit və Şokolad Fabriki" MMC-nin istehsal sahələrində hazırlanan 400 ton vafli məmulatları İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş mənşə sertifikatları əsasında 7 ölkəyə göndərilib. Bu tədbirlərin davamı olaraq ötən günlərdə 24 ton vafli məmulatı Əfqanıstan Respublikasına yola salınıb.

Bu gün muxtar respublikada sahibkarlara göstərilən diqqət və qayğı, ixracın stimullaşdırılması sahəsində qəbul olunan qərarlar, sahibkarlığa sistemli dövlət dəstəyi muxtar respublikanın ixrac imkanlarını artırıb, iqtisadi əlaqələri daha da genişləndirib, yerli malların dünya bazarlarında daha geniş çeşiddə təmsil olunmasına şərait yaradıb.

## ◆İqtisadiyyat xəbərləri

# 6 ayda ölkə üzrə əməkhaqqı fondu 8 faiz artıb

"Pandemiya dövründə həm dövlət sektoru üzrə 910 min iş yerinin qorunması təmin edilmiş, həm də özəl sektorda iş yerlərinin qorunması üçün tədbirlər görülmüşdür. Eləcə də özəl sektorda cari ilin əvvəli ilə müqayisədə əmək müqavilələrinin sayı 110 min ədəd (17 faiz) artmışdır".

Bunu deyən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin sözlərinə görə, hazırda özəl sektorda 750 min əmək müqaviləsi ilə çalışan var. Dövlət və özəl sektor üzrə əmək müqavilələrinin sayında isə 7 faizlik artım qeydə alınıb. S.Babayev bunun kölgə iqtisadiyyatının azaldılması, qeyri-formal məşğulluğun leqallaşdırılması hesabına mümkün olduğunu bildirib.

"Əmək müqavilələrinin artımı əməkhaqqı fondunun artmasına da səbəb olub. Bu ilin 6 ayında ölkədə əməkhaqqı fondu 8 faiz artıb. Bu, formal məşğulluğun əhatəsinin genişləndirilməsi baxımından da çox önəmlidir" - deyə nazir müavini qeyd edib.

# İqtisadiyyat Nazirliyi daha bir maarifləndirici videoçarx hazırlayıb

İqtisadiyyat Nazirliyi pandemiya ilə mübarizə çərçivəsində maarifləndirmə tədbirlərini davam etdirir. Bu istiqamətdə hazırlanan növbəti videoçarx karantin rejimində ticarət obyektlərində yerinə yetirilməli olan tələbləri özündə əks etdirir.

Sadə və anlaşılan qrafik izah üzərində qurulan videoçarxda əsas diqqət hər bir ticarət obyektində həm əməkdaşların, həm də alıcıların sağlamlığının qorunmasının vacibliyinə və infeksiyanın yayılmasına qarşı profilaktik tələblərə ciddi riayət edilməsinə yönəldilib. Bu tələblər isə ticarət obyektinin zəruri gigiyena vasitələri ilə təmin edilməsi və bu vasitələrin hamı üçün əlçatan olması, obyekt daxilində sosial məsafənin qorunmasına ciddi nəzarət edilməsi, ticarət obyektinin bütün əməkdaşlarının qoruyucu maska taxması, maskasız alıcıların obyektə daxil olmasına icazə verilməməsidir.

Çarxda vurğulanan daha bir məqam odur ki, obyekt daxilində mütəmadi olaraq dezinfeksiya işləri aparılmalı, alıcıların sayına nəzarət olunmalı, zərurət yarandıqda istehlakçıların növbə ilə girişi təmin edilməlidir.

Pandemiya dövrünün əsas çağırışları - "Biz birlikdə güclüyük" və "Koronavirusa yalnız birlikdə qalib gəlmək mümkündür" videoçarxın ana xəttini təşkil edir.

Hər bir şəxs tərəfindən qaydalara riayət edilməsinin vacibliyi vurğulanan maarifləndirici çarx istehlakçılar və ticarət obyektlərinin əməkdaşları üçün nəzərdə tutulub.

# "SNC-Lavalin's Atkins" Azərbaycanda kiçik SES-lərlə bağlı yekun hesabatını təqdim edib

Azərbaycanda kiçik su elektrik stansiyalarının fəaliyyətinin yaxşılaşdırılması və çayların hidroenerji potensialından səmərəli istifadə edilməsi ilə bağlı aparılan araşdırmaların nəticələrinə dair "SNC-Lavalin's Atkins" şirkətinin yekun hesabatının onlayn formatda təqdimatı keçirilib.

Energetika, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, "Azərnerji" ASC, "SNC-Lavalin's Atkins", BP və Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə bildirilib ki, mövcud kiçik su elektrik stansiyalarının səmərəliliyinin qiymətləndirilməsinə, beynəlxalq təcrübə nəzərə alınmaqla stansiyaların fəaliyyətinin təkmilləşdirilməsinə, eləcə də son illər müşahidə olunan quraqlıq da nəzərə alınmaqla yeni su elektrik stansiyalarının tikintisinin məqsədəuyğunluğunun araşdırılmasına zərurət yaranıb. Bu məqsədlə 2018-ci il oktyabrın 19-da Energetika Nazirliyi ilə BP şirkəti arasında imzalanmış "niyyət məktubu" çərçivəsində nazirlikdə aidiyyəti qurumların mütəxəssislərindən ibarət işçi qrupu yaradılaraq və layihənin icrasına "SNC-Lavalin's Atkins" şirkəti cəlb edilərək tədqiqatlar aparılıb. Layihə çərçivəsində 5 kiçik su elektrik stansiyası və yeni stansiyalar üçün seçilmiş 6 sahəyə səfərlər edilib və qiymətləndirmə aparılıb.

"SNC-Lavalin's Atkins" şirkətinin nümayəndələri Rodrigo Freire De Macedo və Matt Skidmorenin təqdimatında ölkəmizdə mövcud kiçik su elektrik stansiyalarının, eləcə də seçilmiş ərazilərdə inşası planlaşdırılan stansiyaların səmərəlilik aspektindən qiymətləndirilməsi, texniki-iqtisadi göstəriciləri, dağ çaylarının potensialı və tövsiyələr diqqətə çatdırılıb.

AR Energetika naziri Pərviz Şahbazov iki il müddətinə həyata keçirilən bu layihənin əhəmiyyətini və layihəyə BP şirkəti, eləcə də digər qurumların dəstəyini yüksək qiymətləndirib. "Bu hesabat əsasında ölkəmizdə elektrik enerjisi istehsalı ehtiyaclarını, su potensialını və su qıtlığını nəzərə alaraq, kiçik su elektrik stansiyaları ilə bağlı inkişaf strategiyamızı işləyib hazırlayacağıq. Bu sahənin özəl sektorun cəlbi ilə inkişafı isə əsas hədəflərdən biridir", - deyə nazir əlavə edib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Conz isə bildirib ki, Azərbaycanın zəngin karbohidrogen ehtiyatları var. Bununla belə hökumətin enerji keçidi ilə bağlı siyasəti təqdirəlayiqdir.

# Yol verilən limitlər çərçivəsində icazələr aktivləşdirilib

Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli qərarı ilə fəaliyyətinə icazə verilən sahələr üzrə hüquqi və fiziki şəxslərin müraciətləri əsasında icazələrin aktivləşdirilməsi davam edir.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə daxil olan müraciətlər təxirə salınmadan araşdırılır və əsaslı müraciətlər üzrə vergi ödəyicilərinin "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməsinin mümkünlüyü barədə məlumat dərhal Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ("ASAN xidmət"ə) göndərilir.

Aparılmış araşdırmalar nəticəsində əvvəllər icazəsi olmuş, sonradan isə icazələrin verilməsi məhdudlaşdırılmış bir sıra hüquqi və fiziki şəxslərin müraciətləri əsasında onların vergi orqanlarının məlumat bazasında olan fəaliyyət istiqamətləri və təsnifat kodları ilə bağlı məlumatları yenidən dəqiqləşdirilib, uçot baza məlumatları yenidən işlənib, belə işəgötürənlərin və əlavə fəaliyyət istiqamətləri icazə verilən sahələrə daxil olan bir sıra hüquqi və fiziki şəxslərin işçilərinin sayına uyğun olaraq yol verilən limitlər çərçivəsində icazələrin aktivləşdirilməsi həyata keçirilib.

# 85 mindən çox şəxsə e-qaydada pensiya, müavinət və təqaüd təyin olunub

Məlum olduğu kimi, Azərbaycanda 2019-cu ilin əvvəlindən pensiyalar, ötən ilin son aylarından isə müavinət və təqaüdlər üzrə elektron təyinat sistemi (ümumilikdə 21 e-təyinat sistemi) işə salınıb.

Cari ilin 1 iyul tarixinə olan məlumata əsasən, həmin e-təyinat sistemləri vasitəsilə ötən dövrdə 85 mindən çox şəxsə e-qaydada pensiya, müavinət və təqaüd təyinatı aparılıb. Onlardan 25100 nəfərə e-qaydada pensiya, 60 min şəxsə e-qaydada müavinət və təqaüd təyin olunub.

Qeyd edilən e-təyinat sistemləri vətəndaşların pensiya, müavinət və təqaüd hüquqları yaranan zaman onlara proaktiv qaydada xidmət göstərməyə imkan yaradıb. Nəticədə həmin şəxslər hansısa quruma müraciət etmələrinə və sənəd təqdim olunmasına ehtiyac qalmadan onlara müvafiq sosial təminat növləri üzrə e-təyinatlar həyata keçirilir.

# İlham Əliyev Ermənistan hakimiyyətini ifşa etdi:

## “Prezidentləri rüşvətxor, generalları oğru, qəhrəmanları faşist, terrorçudur”

*Əvvəli 1-ci səh.*

### “Xunta getdi, diktatura gəldi”

Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlməsindən 2 il müddət vaxt keçməsinə baxmayaraq, ölkədə pandemiya fonunda yeni parçalanmalar, gərginliklər müşahidə edilməkdədir. İşğalçı ölkədə Paşinyanın hakimiyyətə gəlişi zamanı verdiyi vədlərin yerinə yetirilməsinin mümkünsüz, əslində, cəmiyyətdə baş nazirə inamın sürətlə əriyib yox olduğunu xüsusi vurğulamaq lazımdır.

Bu günlərdə Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışından sonra jurnalistlərə müsahibəsində Prezident İlham Əliyev deyib ki, 20 il ərzində bir ölkəyə rüşvətxorlar, cinayətkarlar, oğrular rəhbərlik edibsə, bu ölkə cinayətkarlar, oğrular, rüşvətxorlar ölkəsidir. Ermənistanın dırnaqarası müstəqillik tarixinin rüsvayçılıq tarixi olduğunu diqqətə çatdıran dövlətimizin başçısı bildirib ki, bütün Ermənistan rəhbərləri hakimiyyətə qanunsuz yollarla gəliblər. Ölkənin, sadəcə olaraq, tarixinə baxmaq kifayətdir ki, bunun təsdiqini görəsən. *“... Bu, terrorçu ölkədir və 2018-ci ilə qədər quldur, kriminal, rüşvətxor xuntanın hakimiyyəti Ermənistanı bu acınacaqlı vəziyyətə gətirib çıxardı. Belə çıxır ki, Ermənistan prezidentləri rüşvətxor olublar və ikisi də indi cinayət məsuliyyətinə cəlb edilib. Onların generalları oğru olublar, əsgərlərin tuşonkasını bazarlarda satdırıblar. Onların qəhrəmanları faşist, terrorçu və cinayətkar olublar. Bax, budur, bugünkü Ermənistan. İndi baxın görün son iki il ərzində nələr baş verir. Belə olan halda mənzərə tam üzə çıxacaq. Son iki il ərzində Ermənistanda diktatura rejimi formalaşıb. Xunta getdi, diktatura gəldi. Ermənistanda insan haqları kobudcasına pozulur, jurnalistlər həbs olunur... Ermənistanda konstitusiya kobudcasına pozulur və konstitusiyaya qanunsuz dəyişikliklər edilir. Halbuki bu dəyişikliklər ancaq referendumla edilə bilərdi. Siyasi opponentlər təqib edilir, siyasi partiya rəhbərlərinin deputat toxunulmazlığı götürülür, onlar hədələnir, onların qohumlarına qarşı cinayət işləri açılır, hakimiyyət zəbt edilib, hakimiyyət bölgüsü tamamilə mövcud deyil. Baş nazir həm hakimdir, həm prokurordur, həm icra orqanının rəhbəridir, həm də sanki parlamentin sədridir. Qanunvericilik, məhkəmə-hüquq və idarəetmə mexanizmi bir adamın əlində cəmlənib və Ermənistanda diktatura artıq formalaşıbdır”.*

Göründüyü kimi, Ermənistanda xalq inqilab edərək yaxşı yaşamaq üçün “xalqın baş nazirini” hakimiyyətə gətirdikdən iki il sonra acı reallıqla üzləşməli olub. Bu gün ölkədəki sosial vəziyyət hakimiyyət dəyişikliyindən əvvəlki vəziyyətdən daha gərgindir. Bir çox insan gündəlik çörək problemini həll etmək faktı ilə üzləşib. Minlərlə vətəndaş işini itirib və onların sayı artmaqda davam edir. Bütün bunlar insanların həyat və yaşayış şəraitini ciddi şəkildə yaxşılaşdırılacağına, maaşların artırılmasına və iş yerlərinin açılmasına, işsizliyin və yoxsulluğun azaldılmasına söz verən həmin “inqilab”dan 2 il sonra baş verir.

### Beynəlxalq təşkilatlar yenə susur

Bu gün dünyanın siyasi müstəvisində özünü qabarıq şəkildə göstərən əsas problemlərdən biri də ikili standartlarla bağlıdır. Xüsusən də Qərb dövlətləri və onların təmsil olunduğu bəzi beynəlxalq təşkilatlar tərəfindən dünyada gedən proseslərə ikili standartlar əsasında yanaşılması özünü getdikcə daha çox büruzə verir. Bu, hər dəfə özünü Ermənistanda keçirilən seçkilərdə və insan haqlarının kobud şəkildə pozulduğu proseslərdə də aydın göstərir.

Həmişəki kimi beynəlxalq təşkilatlar bunlara laqeyd yanaşır. Bununla yanaşı, əksər beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıması haqqında qərar və qətnamələri var. Amma bunların heç biri icra olunmur. Çünki bu gün beynəlxalq ictimaiyyət, ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanın danışıqlarda qeyri-konstruktiv mövqe nümayiş etdirməsinə, status-kvonun qorunub saxlanması cəhdlərinə, danışıqların pozulmasına yönəlik addımlarına kəskin iradını bildirmir. Halbuki Ermənistan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri başda olmaqla nüfuzlu beynəlxalq qurumların qərar və qətnamələrini də icra etməyərək onlardan boyun qaçırır.

Eyni zamanda, Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatında əks olunmuş status-kvonun saxlanmasının yolverilməzliyi, hərbi əməliyyatlardan çəkinməsi və münaqişənin sülh yolu ilə həlli təkliflərini də hesaba almır. Məsələnin bu tərəfinə toxunan dövlətimizin başçısı deyib: *“... Ancaq baxın, beynəlxalq təşkilatlar, - indi bunu bir çox adamlar deyir, - buna nə reaksiya verir? Heç bir reaksiya vermir. Haradadır ATƏT-in media üzrə nümayəndəsi? Hansı ki, gecə-gündüz Azərbaycan haqqında iftiralar uydurur və indi dəridən-qabıqdan çıxır ki, öz vəzifəsində qala bilsin. Niyə səsini çıxarmır? Niyə həbsxanada jurnalist öləndə səsini çıxarmayıb? Niyə pozuntular olanda səsini çıxarmayıb? Haradadır Avropa Şurası? Niyə Ermənistan tənqid olunmur? Niyə Ermənistan üzrə, siyasi məhbus üzrə məruzəçi təyin edilmir? Mən bütün bu sualları verirəm və bu suallar cavabsız qalır, bu suallara cavab verilmir. Çünki sərf etmir. Nə cavab verəcəklər? Cavab verəcəklər ki, biz saxtakarıq? Deməyəcəklər. Sadəcə olaraq, susmağa üstünlük verirlər”.*

Azərbaycan Prezidenti onu da deyib ki, Avropa qurumlarının saxtakarlığı həm də Ermənistanda keçirilmiş bütün seçkilərdə görülüb. Bu ölkədə bütün seçkilər saxtalaşdırılıb, amma bütün seçkilərə müsbət rəy verilib. Heç uzağa getməyək: *“... Guya ki, onlarda baş verən inqilabdan əvvəl Sarkisyan hakimiyyəti qanunsuz zəbt etmək istədi, parlament seçkilərini saxtalaşdırdı, özünə 50 faizdən çox səs yazdırdı. Avropa Şurası Parlament Assambleyası, ATƏT-in müşahidəçi missiyası buna müsbət rəy verdilər. Yaxşı, görmürdünüz ki, bu adam saxtakardır, bu adam səsləri oğurlayıb, Ermənistanda seçicilərin kütləvi qaydada satın alınması prosesi gedir?! Beynəlxalq müşahidəçilər Sarkisyan hakimiyyətinə, onun saxtalaşdırılmış seçkilərinə müsbət rəy verir, ondan sonra xalq ayağa qalxır. Çünki erməni xalqı Sarkisyana və onun xuntasına nifrət edirdi, bunu gizlətmirdi və nifrətəlayiq bir ünsürdür. O vaxt xalq ayağa qalxanda onun hansı aciz vəziyyətdə olmasını bütün dünya görüb, qorxa-qorxa çəkildi kənara, dedi ki, mən səhv etmişəm, məni bağışlayın, qaçdı getdi. Qorxaq. Bunun başqa adı yoxdur... Yəni, bu Sarkisyan xunta rejimi devriləndən sonra parlament seçkiləri elan olunur və onun faşist simvolikası ilə eyni simvolikası olan Respublikaçılar Partiyası heç 1 faiz də səs toplamır. Necə ola bilər, bir neçə ay bundan əvvəl o, 50 faiz, indi isə 1-2 faiz səs toplayır? Təbii ki, saxtakarlıq. Amma mənim sözüm onda deyil. O aydın məsələdir ki, Ermənistan saxta dövlətdir və əlbəttə ki, saxtakarlıq orada əsas amildir. Mənim sözüm bax, buna göz yuman, demokratiyadan dəm vuran, Azərbaycanı qaralamaq istəyən Avropanın saxtakar müşahidəçilərinədir”.*

### Azərbaycan Prezidentindən sərt xəbərdarlıq

Həyata keçirdiyi işğalçılıq siyasətini hər vəchlə davam etdirməyə çalışması bu gün Ermənistanı humanitar, sosial-iqtisadi və digər mühüm sferalarda daha böyük problemlər məngənəsinə yuvarlamaqdadır. Təcavüzkar ölkənin özündə də açıq etiraf edilir ki, Azərbaycanla müharibə vəziyyəti Ermənistanda bütün vacib sahələrdə yaşanan tənəzzülün kökündə dayanan ən ümdə səbəblərdən biridir.

Bütün mühüm parametrlər, o cümlədən hərbi müstəvidə Ermənistan üzərində böyük üstünlüyə malik Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllində maraqlı olduğunu bəyan edir. Bu hal eyni zamanda Azərbaycanın bu vaxta kimi işğalçı ölkəyə etdiyi ən böyük güzəşt sayılır. Amma ölkəmiz belə vəziyyətdən istifadə edib Ermənistanın işğal siyasətini uzatmasını da qətiyyən qəbul etmək niyyətində olmadığını dəfələrlə ən yüksək səviyyədə beynəlxalq ictimaiyyətin, o cümlədən münaqişənin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin diqqətinə çatdırıb. Azərbaycan tərəfinin tələb olunacağı təqdirdə güc yolu ilə ərazilərini işğaldan azad etmək iqtidarında olmasını isə dünya ictimaiyyəti, o cümlədən işğalçı Ermənistan yaxşı bilir.

Dağlıq Qarabağda qeyri-qanuni “seçkilərin” keçirilməsi Azərbaycan Respublikası Konstitusiyasının və beynəlxalq hüququn norma və prinsiplərinin açıq şəkildə pozulmasıdır və bu səbəbdən də hər hansı bir hüquqi qüvvəsi ola bilməz. Bu qondarma “seçkilər” həmçinin işğal edilmiş ərazilərdə Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünə qarşı güc tətbiqi və güc təhdidi, dəhşətli etnik təmizləmə və beynəlxalq hüququn digər norma və prinsiplərinin kobud şəkildə pozulması ilə yaradılmış şərait altında keçirilir. Prezident İlham Əliyev deyib ki, ATƏT-in Minsk qrupundan konkret bəyanatlar gözləyirik və onu eşitmək istəyirik: *“Ermənistanın baş naziri deyir “Qarabağ Ermənistandır”. Buna mən cavab verirəm və lazımi cavab verirəm. Amma Minsk qrupu niyə buna cavab vermir? Niyə cavab vermir ki, bu ifadə, əslində, Minsk qrupunun formalaşdırdığı danışıqların mahiyyətini alt-üst edir, danışıqları faktiki olaraq əhəmiyyətsiz edir. Minsk qrupunun həmsədrləri buna adekvat reaksiya veriblər? Verməyiblər! Ermənistan tərəfi iki ildir danışıqların formatını dəyişmək istəyir və bəyan edir ki, Azərbaycan qondarma Dağlıq Qarabağın qondarma, saxta, dırnaqarası liderləri ilə danışıqlar aparmalıdır. Buna adekvat cavab verilir? Verilmir! Bəli, bəzi mücərrəd sözlərlə, nala-mıxa vurmaqla cavab verilir. Axı, o dövr keçibdir. Biz aydınlıq tələb edirik. Bu addımlar kim tərəfindən atılır? Ermənistan tərəfindən. Biz danışıqlar formatına da sadiqik, danışıqların mahiyyətini də əsas götürürük. Əlbəttə ki, o mahiyyətdə bizi heç də hər şey qane etmir. Ancaq biz demişik, bizi nə qane etmir və nə qane edir. Ermənistan nə edir? “Qarabağ Ermənistandır” deməklə tamamilə danışıqların mahiyyətini yerə vurur. “Formatı dəyişmək lazımdır” fikri danışıqları əhəmiyyətsiz edir. Yəni, buna adekvat reaksiya verilməlidir, yoxsa yox?!”*

Prezident İlham Əliyev onu da vuğrulayıb ki, qondarma Dağlıq Qarabağ respublikasının saxta seçkiləri nəticəsində saxta prezident Şuşada andiçmə mərasimi keçirir. Buna adekvat cavab verilir, yoxsa yox?! Axı bu, açıq-aydın təxribatdır. Dövlət başçısı onu da əlavə edib ki, indiyədək heç kim tərəfindən tanınmayan bu kriminal Dağlıq Qarabağ rejiminin bir neçə dırnaqarası seçkisi olub, Şuşada toy-bayram keçirilib. Nə üçün buna adekvat reaksiya verilmir? Nə üçün deyilmir ki, bu, təxribatdır və bu təxribata görə Ermənistan cavabdehlik daşıyacaq: *“Bunu mən deyirəm. Amma onlar deməlidirlər, əgər istəyirlər ki, bu məsələ sülh yolu ilə həll olunsun. Nədir bunların bəyanatında əsas tezis - hərb variantı mümkün deyil. Kim deyir? Gedin açın BMT-nin Nizamnaməsini, baxın görün özünümüdafiə hüququ var ölkələrdə, yoxsa yox? Yoxsa siz özünüzü nə hesab edirsiniz?! Siz BMT-dən də üstünsünüz?! BMT-nin Nizamnaməsindən də üstünsünüz?! Belədirsə, gedin deyin, biz Minsk qrupunun həmsədrləri hesab edirik ki, BMT-nin Nizamnaməsində əks olunan bu tezis yanlışdır. Axı gərək hər şeyin həddi olsun. Ona görə biz onlardan daha ciddi, konkret və məqsədə ünvanlanmış bəyanatlar gözləyirik. Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparır”.*

Azərbaycanın beynəlxalq təşkilatların və Ermənistanın qarşısında qoyduğu tələb kifayət qədər aydındır. Əgər dünya həmişə böyük geosiyasi əhəmiyyətə malik region kimi qəbul etdiyi Cənubi Qafqazda yenidən müharibə alovlarını görmək istəmirsə, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün işğalçı Ermənistanı beynəlxalq hüququn tələblərini yerinə yetirməyə vadar etməlidir. Ədalətin öz yerini tutması üçün qaçqın və məcburi köçkünlərin doğma torpaq həstərinə son qoyulmalıdır. Beynəlxalq hüququn işlək vəziyyətdə olduğunu göstərmək üçün BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlum 4 qətnaməsinin icrası təmin edilməlidir. Sözügedən qətnamələrdə BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ regionunu Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi bir daha təsbit edir və işğal edilmiş bütün ərazilərindən işğalçı qoşunların tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Lakin bütün bu yazılanlar kağız üzərində qalmaqda davam edir. Buna göz yumanlar qondarma rejimdə keçirilən uydurma “seçkilər”in beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması ilə yaradılmış şərait altında keçirildiyini də çox yaxşı bilirlər.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Beynəlxalq aləm

## Mustafa Şentop yenidən Türkiyə parlamentinin sədri seçilib

Mustafa Şentop iyulun 7-də yenidən Türkiyə Böyük Millət Məclisinin sədri seçilib. Türkiyə Böyük Millət Məclisinə ikinci dövr üçün parlamentdə təşkil olunan səsvermə ilə qanunvericiliyə uyğun olaraq 27-ci çağırış yeni sədr vəzifəsi uğrunda beş namizəd mübarizə aparıb.

Hakim Ədalət və İnkişaf Partiyası (AKP) ilə Milliyyətçi Hərəkat Partiyası (MHP) Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun adını vahid namizəd olaraq irəli sürüblər. Səsvermədə əsas mübarizə AKP-dən olan millət vəkili Mustafa Şentop ilə Cümhuriyyət Xalq Partiyasının (CHP) təmsilçisi Haluk Koç arasında olub. Səsvermənin birinci turunda rəqiblərindən irəlidə olan Mustafa Şentop 324 səs toplasa da, bu göstərici tələb olunan 400 səsdən aşağı olduğu üçün səsvermənin ikinci turu keçirilib. İkinci turda da eyni hüquqi vəziyyət yaranıb. Nəhayət, üçüncü tur səsvermədə Mustafa Şentop 328 səslə rəqiblərini geridə buraxmaqla deputatların etimadını qazanaraq yenidən Türkiyə Böyük Millət Məclisinin sədri seçilib.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun parlament üzvləri qarşısında təbrik çıxışı dinlənilib.

Qeyd edək ki, Türkiyə qanunvericiliyinə görə, parlament sədri iki il müddətinə seçilir. İyulun 6-da Mustafa Şentopun parlament sədri kimi səlahiyyət müddəti başa çatmışdı.

## İndoneziyada güclü zəlzələ baş verdi



Dünən İndoneziyanın Yava adasının sahillərində 6,3 bal gücündə zəlzələ qeydə alınıb. Bu barədə Avropa-Aralıq dənizi Seysmoloji Mərkəzi məlumat verib.

Zəlzələnin episentri Semaranq şəhərindən (Mərkəzi Yava əyalətinin inzibati mərkəzi) 154 km şimalda olub. Yeraltı təkanların ocağı isə 528,7 kilometr dərinlikdə yerləşib.

İlkin məlumata görə, xəsarət alanlar və sunami təhlükəsi yoxdur.

## İzmir yaxınlığında 276 miqrantı daşıyan gəmi saxlanıldı



Dünən 276 qeyri-leqal miqrantı daşıyan gəmi Türkiyənin qərbindəki İzmir vilayətinin sahilləri yaxınlığında saxlanılıb. Bu barədə “Anadolu” agentliyi xəbər verir.

İzmir Polis İdarəsindən verilən məlumata görə, gəmidə Narlidere rayonu sahilləri yaxınlığında yoxlama keçirilib. Əfqanıstan, Banqladeş, Suriya, Mərkəzi Afrika Respublikası, Somali və İrandan olan qeyri-leqal miqrantlar, Türkiyənin müxtəlif yerlərindən İzmirə gələrək gəminin trümunda gizləniblər.

Saxlanılanlar arasında 46 qadın və 59 uşaq var.

Miqrantların Avropaya qanunsuz qaçaqmalçılığının təşkilinə görə 8 nəfər tutulub.

## Londonda Rubensin rəsm əsəri tapıldı



Londonda flamand sənətçi Peter Paul Rubensin rəsm əsəri tapılmışdır. Bu barədə Rosbalt agentliyi xəbər verir.

Sotheby's hərrac evinin səhifəsində bildirilir ki, rəsm 139 il özəl kolleksiyada saxlanmışdır.

“Xanımın portreti” adlı rəsm toz və köhnə lak altında çirkli vəziyyətdə tapılmışdır. Portret 17-ci əsrdə çəkilmişdir. 1902-ci ildə rəsm əsəri Londonun Kral Rəssamlıq Akademiyasında nümayiş etdirilmişdir.

Mütəxəssislər əsərin orijinallığını təsdiqləmişlər və onu 4 milyon dollardan çox qiymətə dəyərləndirmişlər. Hazırda sahibi “Xanımın portreti”ni satmaq istəyir. Lotun qiyməti - 3,1 - 4,3 milyon dollar təşkil edir.

## Braziliya Prezidenti özündə koronavirus əlamətləri aşkar etdi



Braziliya Prezidenti Jair Bolsonaru özündə koronavirus infeksiyasına xarakterik simptomlar aşkarlamış və bu səbəbdən həftə sonunadək planlaşdırdığı tədbirləri ləğv etmişdir.

Bu barədə dövlət başçısı özü məlumat verib.

“CNN Brasil” telekanalının xəbərinə görə, Bolsonaru koronavirus testindən keçdiyini və nəticələrin yaxın zamanda məlum olacağını bildirib.

Prezidentin dediyinə görə, onun bədən hərarəti 38 dərəcəyə qədər yüksəlib, qanın oksigenlə zənginləşməsi isə 96 faizə enib. O, həmçinin ağciyərlərini maqnit rezonans tomoqrafiyasından keçirdiyini də bildirib.

Hazırda dövlət başçısı müalicə üçün hidroksixloroxin dərmanını qəbul edir.

Xatırladaq ki, Ümumdünya Səhiyyə Təşkilatı həmin preparatın sınaqlarını dayandırıb.

## Çində məktəb avtobusu su anbarına aşdı

Çinin cənub-qərbində yerləşən Huyçjou əyalətində ictimai avtobusun su anbarına aşması nəticəsində azı 21 nəfər həlak olub, 15 nəfər isə xəsarət alıb.

Bu barədə Çinin Mərkəzi Televiziyası xəbər verir. Hadisə Quyçjou əyalətinin Anşun şəhərində baş verib. Məktəbliləri daşıyan avtobus naməlum səbəbdən aşıb və mühafizə maneəsini qıraraq su anbarına düşüb.

Hazırda hadisə yerində axtarış-xilasetmə əməliyyatı davam edir. Xilasedicilər avtobusu sudan çıxarıb.

İnsidentlə bağlı təhqiqat başlayıb.

## Azərbaycan Milli Antidopinq Agentliyinin əməkdaşları beynəlxalq inspektor statusu alacaq

İyulun 7-də Beynəlxalq Test Agentliyinin beynəlxalq dopinq nəzarəti inspektorları üçün təlim-sertifikat proqramına start verilib.

Azərbaycan Milli Antidopinq Agentliyindən (AMADA) AZƏRTAC-a bildiriblər ki, bu proqramda iştirak üçün aralarında AMADA-nın da olduğu dünya üzrə cəmi səkkiz milli və regional antidopinq agentliyi müəyyənləşdirilib. AMADA proqramın hazırlanmasında təcrübələrini bölüşməklə və təklifləri ilə layihəyə töhfəsini verib. Ümumilikdə proqrama cəlb olunan bütün təşkilatlar dünyada keyfiyyətli testin təşviqi üçün Beynəlxalq Test Agentliyi ilə səylərini birləşdirib.

Proqramın məqsədi dünyada antidopinq sahəsində testlərin keyfiyyətinin artırılması üçün səylərin birləşdirilməsi və qabaqcıl təcrübələri təhlil edərək ən yaxşı standartların müəyyənləşdirilməsidir. Bu proqramın digər hədəfi yarışmadan kənar və beynəlxalq idman yarışlarında, o cümlədən dünya çempionatları, Olimpiya Oyunları və digər böyük yarışlarda dopinq nəzarətini həyata keçirmək üçün Ümumdünya Antidopinq Agentliyinin uyğunluq standartlarına cavab verən peşəkar mütəxəssislər hazırlamaqdır.

Proqram çərçivəsində AMADA-nın inspektorları xüsusi seminarlara cəlb ediləcək. Seminarların nəticəsində iştirakçılara beynəlxalq inspektor statusu verən sertifikatlar təqdim olunacaq.

Proqram antidopinq üzrə beynəlxalq mütəxəssislərin rəyləri və Ümumdünya Antidopinq Agentliyinin standartları nəzərə alınmaqla hazırlanıb. Beynəlxalq Test Agentliyi COVID-19 pandemiyasını nəzərə alaraq təlimləri bu yay onlayn keçirəcək. Ənənəvi seminarların yeri və vaxtı isə yaxın gələcəkdə ev sahibi təşkilatlarla razılaşdırıldıqdan sonra təsdiqlənəcək.

## 1482 hərəkət iştirakçısı cərimələnib

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi iyulun 6-da xüsusi karantin rejiminin pozulmasına görə inzibati məsuliyyətə cəlb edilmiş hərəkət iştirakçılarının sayı və görülən tədbirlər barədə məlumatı açıqlayıb. İdarədən AZƏRTAC-a bildiriblər ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Cəlilabad, Gəncə, Goranboy, Göygöl, Lənkəran, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Xaçmaz, Samux, Siyəzən və Şəki rayonları ərazisində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə iyulun 6-sı saat 00:00-dan iyulun 7-si saat 00:00-dək olan müddət ərzində nəqliyyat vasitələri ilə hərəkətdə olan 1332 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211.1-ci, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə 149 nəfər həmin Məcəllənin 211.2-ci, eyni əməllərin il ərzində təkrar törədilməsinə görə isə Məcəllənin 211.3-cü maddəsi ilə 1 nəfər olmaqla ümumilikdə 1482 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

Bu müddətdə Bakı-Quba yolunun 52-ci kilometrliyində yerləşən karantin keçid postundan 40-ı rayon, 60-ı paytaxt istiqamətinə olmaqla 100, Bakı-Şamaxı-Yevlax yolunun 31-ci kilometrliyində yerləşən postdan 40-ı rayon, 45-i paytaxt istiqamətində olmaqla 85, Bakı-Qazax-Gürcüstan yolunun 65-ci kilometrliyində yerləşən keçid postundan 70-i rayon, 50-si paytaxt istiqamətində olmaqla 120 nəqliyyat vasitəsi geri qaytarılıb. Ümumilikdə 305 nəqliyyat vasitəsilə müvafiq icazə olmadan postlardan keçmək cəhdinin qarşısı alınıb.

## Atəşkəs rejimi 37 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 37 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Ayqepar, Çinari kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Əlibəyli, Ağbulaq, Gədəbəy rayonunun Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Xocavənd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## “Zaminbank” ASC-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilib

Ölkəmizdə həyata keçirilən davamlı iqtisadi inkişafın mühüm şərtlərindən biri kimi şəffaflığın və maliyyə intizamının təmin edilməsi, aparılan iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi prokurorluq orqanları tərəfindən daim diqqət mərkəzində saxlanılmaqla korrupsiya hüquqpozmalarına qarşı kəsərli mübarizə tədbirləri davam etdirilir. Həmin tədbirlərin davamı olaraq, “Zaminbank” ASC-nin vəzifəli şəxslərinin vəzifə səlahiyyətlərindən sui-istifadə etmələri nəticəsində özgə əmlakını külli miqdarda ələ keçirmələri və digər faktlar üzrə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilmiş təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri ilə hazırda ləğv edilmiş “Zaminbank” ASC-nin Müşahidə Şurasının sabiq sədri Nadir İsmayılovun işlədiyi dövr ərzində müxtəlif korrupsiya sxemlərindən istifadə etməklə fiziki və hüquqi şəxslərin adına ayrılmış 16 milyon manatdan artıq məbləğdə ASC-yə məxsus kredit vəsaitini bankın digər vəzifəli şəxslərinin köməyi ilə külli miqdarda ziyan vurub mənimsəməsinə əsaslı şübhələr müəyyənləşdirilib. İstintaqla, həmçinin Nadir İsmayılovun bilə-bilə hüquq verən saxta rəsmi sənəddən istifadə edərək bankın Bakı filialının müdiri vəzifəsində işləmiş Şirinov Elşən Nizami oğluna məxsus 145 min manat məbləğində pul vəsaitini ələ keçirərək ona külli miqdarda ziyan vurmaqla təkrarən dələduzluq etməsinə şübhələr üçün əsaslar müəyyən olunub.

Bu qanunsuz əməllərə görə Nadir İsmayılova Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 179.3.2-ci (külli miqdarda mənimsəmə), 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq) və 320.2-ci (bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham elan olunaraq, barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə dörd ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Qeyd edilən qanunsuz əməllər nəticəsində dövlətə və vətəndaşlara vurulan mühüm ziyanın ödənilməsini təmin etmək məqsədilə Nadir İsmayılova məxsus əmlakların aşkarlanması istiqamətində, habelə göstərilən cinayətdə iştirak etmiş digər şəxslərin dairəsinin müəyyən olunmasından ötrü intensiv və zəruri istintaq və əməliyyat tədbirləri davam etdirilir.

Baş Prokurorluğun məlumatında, həmçinin bildirilib ki, bugünə kimi “Zaminbank” ASC-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə əlaqədar Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində ümumilikdə 11 şəxs barəsində 7 cinayət işi üzrə istintaq aparılmaqla 18 milyon manatdan artıq ziyanın ödənilməsi təmin edilib. Həmin cinayət işləri müxtəlif vaxtlarda baxılması üçün məhkəmələrə göndərilmiş və məhkəmələrin qanuni qüvvəyə minmiş hökmləri ilə elan edilmiş ittihamlar üzrə təqsirli bilinərək müxtəlif cəzalara məhkum olunublar.


## B İ L D İ R İ Ş

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi tərəfindən 12 iyun 2020-ci il tarixdə dərc edilmiş pensiya işlərinin arxivləşdirilməsi üzrə müvafiq sənədlərin elektronlaşdırılmasına dair iş və xidmətlərin satın alınması ilə bağlı keçiriləcək açıq tenderdə Tender komissiyasının qərarına əsasən təkliflərin son təqdim olunma tarixi 20 iyul 2020-ci il saat 16:00-a qədər, zərflərin açılışı isə 21 iyul 2020-ci il saat 16:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ
# "AZƏRBAYCAN"

*qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuat yayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

# "Azərenerji" və "Azərişıq" karantin dövründə xüsusi rejimdə çalışır

24 saat növbəli iş prinsipi ilə fəaliyyət göstərən və bir an olsun elektrik enerjisinin istehsalını, ötürülməsini, paylanmasını və idarəedilməsini dayandırmayan "Azərenerji" və "Azərişıq" açıq səhmdar cəmiyyətləri tabeliklərindəki müəssisələrdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirməklə yanaşı, istehlakçıların dayanıqlı, keyfiyyətli və fasiləsiz enerji təminatı üçün bütün lazımi addımları atırlar, baxmayaraq ki, son dövrlər çaylarda su səviyyəsinin azalması enerjinin istehsalına təsir edib, hava hərarətinin getdikcə




yüksəlməsi fonunda çox sayda insanın evdə qalaraq kondisioner işlətməsinə görə elektrik enerjisinə olan tələbatı əvvəlki günlərlə müqayisədə bir qədər də artıb və Nazirlər Kabineti yanında Operativ Qərargahın tələblərinə uyğun olaraq "Azərenerji" və "Azərişıq" işə çıxan əməkdaşlarının sayını kəskin azaldıb.

Lakin şənbə, bazar və bayram günlərində də növbəli şəkildə fasiləsiz olaraq iş başında olan əməkdaşlar necə böyük məsuliyyət daşıdıqlarını başa düşərək, əvvəlki karantin rejimi vaxtlarında olduğu kimi, bu dəfə də istehlakçıların dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsini həyata keçirəcəklər.

# "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

LTE modemlərin (3000 ədəd) satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**600 (altı yüz) manat (ƏDV daxil)** iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN ödəniş" portalı vasitəsilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 29 iyul 2020-ci il saat 11:00-dək aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını 10 avqust 2020-ci il saat 17:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri 11 avqust 2020-ci il saat 11:00-da dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Tender komissiyasının qərarına əsasən 07 iyul 2020-ci il tarixdə "Maşın və avadanlıqlar" (311150) xərc maddəsi üzrə keçirilməsi nəzərdə tutulmuş kotirovka sorğusu ilə əlaqədar sənədlərin qəbulu müddəti 10 iyul 2020-ci il saat 15:00-a qədər uzadılır.

**Əlaqələndirici şəxs: Anar Məmmədov.**
**Ünvan: Bakı şəhəri, S.Əsgərova küç., 85**
**Telefon: (012) 596-47-01**

***Tender komissiyası***





**AZƏR-TÜRK GROUP**

**Dezinfeksiyaedici maddələr, canlı va ya cansız səthlərdə xəstəlik yaradan mikroorqanizmləri aşkar edən və onları məhv edən kimyəvi maddələrdir. COVID-19 virusuna qarşı mübarizədə əsas yer tutur.**

**Bu avadanlıq nazirliklər, idarələr, marketlər, böyük alış-veriş mərkəzləri və dükanlarda istifadə olunan əsas avadanlıqdır.**




**Bu avadanlıq gələn sənədlərin dezinfeksiya edilməsi üçün nəzərdə tutulub.**

**Bu vasitə Nazirlər Kabinetində, "ASAN xidmət"lərdə, dövlət qurumlarında, orta və ali məktəblərində istifadə olunan əsas avadanlıqdır.**




**Köşk avtomatik dezinfeksiya üçün nəzərdə tutulmuşdur və insanların çirklənmiş mühitlə təmasının qarşısını alır.**

**İnsanların əşyalarının və özlərinin dezinfeksiya edilməsi üçün nəzərdə tutulub.**

**Bu vasitə hava limanları, alış-veriş mərkəzləri, sərhədlərdə istifadə olunması lazım olan əsas avadanlıqdır.**

**ƏLAQƏ**
**+99412 489 87 52**
**+99450 232 12 13**
**info@azerturk.com**
**ibrahim_arslan@mail.ru**


# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti
## *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti maşın və avadanlıqların satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 900 (doqquz yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**
**VÖEN: 1003853391**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ41CTRE00000000000002947601**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iİddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notarial qaydada təsdiq olunmuş);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (06.07.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (06.07.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışları qəbul ediləcəkdir);*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 28.07.2020-ci il saat 15:00-a qədər və tender təklifini 07.08.2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 10.08.2020-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin kollektivi əməkdaşları

**HƏMİD ELXAN OĞLU YUNUSOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Elvin Abuşova atası

**NƏSİR ABUŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi sabiq rektor, professor

**FUAD ƏLƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədova əzizi

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev "Azərbkolxozlararasısağlamlıq" Respublika Birliyinin sədri İmran Rzayevə bacısı

**RAZİYYƏ HƏSƏNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Etibar Hümbətova qardaşı

**QƏNİMƏT MİRZƏYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, professor-müəllim kollektivi və bütün əməkdaşları polis polkovniki Natiq Qasımova həyat yoldaşı, universitetin kafedra müdiri

**KÖNÜL QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəhbərliyi və kollektivi xidmətin rəhbər işçisi Şahin Bağırova əzizi

**SOLMAZ BAĞIROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mötəbər Axundova, Farid Axundov və Rəşad Axundov Nigar Məmmədovaya və Zaur İsmayılova anaları

**AYBƏNİZ HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6182
Sifariş 1669
Qiyməti 40 qəpik